Xalqın qəzeti!

# Xalq qəzeti

№ 232 (30348) 24 oktyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Sumqayıt Kimya Sənaye Parkının ərazisi 10 hektarlarla ölçülür. Tamamilə təmizlənmiş bu ərazidə yeni infrastruktur layihələri icra edilib. Özəl sektor da artıq bu parkda uğurla fəaliyyət göstərir, hər il burada bir neçə müəssisə açılır. Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib.**

# Azərbaycan sənayesi modernləşdirilir

## Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri

### Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.**

Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.

### Kimya Sənaye Parkında yeni müəssisələrin açılışı və təməlqoyma



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.*

*(ardı 2-ci səhifədə)*

# Fransa – Ermənistan hərbi əməkdaşlığı və “Yaşma” xofu

## *Suren Papikyanın Paris səfərinə sözardı*

**Əslində gözlənilən idi. Söhbət Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfərindən gedir. Ona görə gözlənilən idi ki, Fransanın müdafiə naziri Sebastyan Lekornyu onu bir müddət əvvəl ölkəsinə dəvət etmişdi. Belə görünür ki, Paris İrəvana əməli dəstək göstərməkdə israrlıdır. Deməli, Cənubi Qafqazda durumu gərginləşdirməkdə maraqlıdır. Hərçənd buna nə maraq, nə də israr demək mümkündür. Fransa özünün bölgə ilə bağlı avantürası naminə Ermənistana rahatlıq vermir.**



Fransanın Ermənistana hazırkı hərbi dəstəyinin ilk simptomları özünü ölkənin xarici işlər naziri Ketrin Kolonnanın bir müddət əvvəl İrəvana etdiyi səfər zamanı göstərmişdi. Həmin vaxt K.Kolonna keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Fransa Ermənistanın təhlükəsizliyinin qorunmasına ciddi önəm verir və ona hərbi yardım göstərəcək. S.Papikyanın da Parisə yollanmasının səbəbi elə budur. Ekspertlər səfərdən sonra daha konkret addımların atılacağı qənaətindədirlər.

Onu da vurğulayaq ki, Fransanın Ermənistana dəstəyi hər zaman olub. Siyasi anlamdakı dəstək əvvəl də tam gücündə idi, indi də hər hansı dəyişiklik yoxdur. Lakin erməni ictimai rəyində belə bir fikir formalaşıb ki, sözdə dəstəklərin heç bir önəmi yoxdur, əksinə ziyanı var. Bunu söyləyənlər Parisin hərəkətlərinin İrəvanı illüziya bataqlığına sürüklədiyi məntiqinə söykənirlər. Təxminən belə: İrəvan boş sözlərə arxalanıb reallıq hissini itirir, mənasız məsələlər gündəmə gətirir, təxribatlara əl atır, nəticədə Azərbaycan hərəkətə keçir və Ermənistan zərər görür.

*(ardı 4-cü səhifədə)*



# Vaşinqton və Brüssel yeni reallıqla barışıb

Səhifə ⇨ 6

# Ermənipərəst dairələr hansı etnik təmizləmədən danışırlar?



**Azərbaycan Prezidenti 50 milyonluq azərbaycanlının 30 illik Qarabağ həsrətinə 44 + 1 gündə son verdi. Etiraf edək ki, Vətən savaşına qədər erməni faşizminin qəsb etdiyi torpaqlarımızda son 3 ilin hadisələrinin belə əhatəli və bu sürətlə baş verəcəyi ağlasığmaz idi. Lakin bu, möcüzəli şəkildə gerçəkləşdi.**

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz İkinci Qarabağ müharibəsində parlaq tarix yazdı: uzun illər düşmən əsarətində olan ərazilərimiz yağı tapdağından azad edildi. Savaşın başlandığı ilk günlərdən etibarən kənd və qəsəbələrimiz, şəhər və rayonlarımız bir-bir azad olunduqca hər bir azərbaycanlının ürəyi qürur hissi ilə döyündü. Bu qalibiyyət, bu zəfər uzun illər aparılan uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsi idi.

*(ardı 8-ci səhifədə)*

# Ordumuz heç zaman indiki kimi güclü olmayıb

Səhifə ⇨ 4

# Yaxın Şərq: müharibənin sonu görünmür...



***HƏMAS yaraqlılarının İsrailə 7 oktyabr hücumundan və bu zaman dinc əhaliyə qarşı törədilən ağır zorakılıqlardan sonra regionda gərginlik günbəgün artır. Yayılan xəbər və süjetlər, həqiqtən, ürəkğrıdıcıdır.***

Sağlam düşüncəli hər kəs düşünür ki, münaqişəni nəyin bahasına olursa-olsun dayandırmaq lazımdır, əks təqdirdə, bu alov bütün region dövlətlərini, son nəticədə planetimizi çulğaya bilər. Amma böyük güclər və maraqlar adi bəşəri hissləri gözardı etməyi özünə rəva bilir.

*(ardı 10-cu səhifədə)*

# “Himayədar” – Hacı Zeynalabdin Tağıyevin ekran obrazı



Səhifə ⇨ 11

# Kimya Sənaye Parkında yeni müəssisələrin açılışı və təməlqoyma





(əvvəli 1-ci səhifədə)

Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verdi.







Bildirildi ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Qeyd edildi ki, hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

***

Prezident İlham Əliyev əvvəlcə parkda "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etdi.

Məlumat verildi ki, "Çinar-Servis" 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 2 hektara yaxın ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır. "Çinar-Servis" tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək.

Dövlətimizin başçısı istehsal müəssisəsinin təməlini qoydu.

***

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Novus Plastica" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Prezident İlham Əliyev "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin açılışını etdi.

Bildirildi ki, "Novus Plastica" MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Sənaye parkının 3,5 hektar ərazisində inşa edilmiş müəssisədə iki növ məhsulun – polietilen borular üçün qara karbon konsentrat qatqısının və sənaye sahəsində qablaşdırmada istifadə edilən polietilen örtüklərin istehsalı həyata keçirilir. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyəyə, MDB ölkələrinə ixracı da planlaşdırılır. İnvestisiya kapitalı 12,1 milyon manatdan çox olan müəssisədə 50-dək insan daimi işlə təmin ediləcək.

Qeyd edək ki, "Novus Plastica" MMC tərəfindən "SOCAR Polymer" MMC-nin və "Azərikimya" İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Sonra Prezident İlham Əliyev "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında iştirak etdi.

Diqqətə çatdırıldı ki, sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq. Ümumi investisiya dəyəri 4,8 milyon manat olan müəssisədə ilkin mərhələdə 50 nəfər daimi işlə təmin ediləcək. Növbəti mərhələdə isə işçilərin sayının 65 nəfərə çatdırılması nəzərdə tutulur.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Daha sonra "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı oldu.

Prezident İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

Qeyd edək ki, "Vanhong Ceramics"in hazırda Çində 5 zavodu var, həmçinin dünyanın 5 ölkəsində müəssisələri fəaliyyət göstərir.

"Azərbaycan Vanhong Ceramics Co." MMC-nin baş direktoru Ciyi Vanq dedi: Möhtərəm cənab Prezident, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılış mərasimində iştirakınızla bizi qürurlandırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

**Prezident İlham Əliyev:** Azərbaycana bu qədər vəsait qoyursunuz, 81 milyon manat investisiya çox böyük rəqəmdir. Bu investisiyalar şirkətiniz, yəni Çin şirkəti tərəfindən qoyulur. İndi mən gördüm ki, işçilərin sayı da 500-ə yaxındır. Bu, eyni zamanda, iş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin-Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni, ilyarım bundan əvvəl mən onun təməlini qoymuşam.

**Ciyi Vanq:** Bəli.

**Prezident İlham Əliyev:** Ona görə əminəm ki, fəaliyyəti də uğurlu olacaq və siz işinizi davam etdirəcəksiniz.

**Ciyi Vanq:** Sizin köməyinizlə hər şey yaxşı olacaq.

**Prezident İlham Əliyev:** Gözəl məhsuldur. İdxala da ehtiyac qalmır. Daxili bazarı təmin edəcəksiniz?

**Ciyi Vanq:** Təmin edəcəyik.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

***

Daha sonra "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməli qoyuldu.

Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının 2,5 hektar ərazisində müxtəlif tikinti kimyəvilərinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 17 milyon manat olan müəssisədə 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.

Dövlətimizin başçısı müəssisənin təməlini qoydu.

# Sumqayıt şəhər stadionu yenidən qurulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.**

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlətimizin başçısına stadionda görülən işlər barədə məlumat verdi.

*(ardı 3-cü səhifədə)*



# Sumqayıt şəhər stadionu yenidən qurulub



(əvvəli 2-ci səhifədə)

Qeyd edək ki, Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tikinti işləri mərhələli şəkildə icra edilməklə 2022-ci ildə başa çatdırılıb.

Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb.

Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada, eyni zamanda, 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar var.

Son illər ölkəmizdə idmanın inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək göstəricilər əldə edir, üçrəngli Bayrağımızı ucaldırlar. Bütün bunlar göstərir ki, ölkəmizdə idmanın inkişafının və onun kütləviliyinin təmin olunması istiqamətində dövlət siyasəti uğurla davam etdirilir. Bu diqqət və qayğı həm də yeni nəslin sağlam ruhda böyüməsinə, gənclərin idmana marağının artırılmasına yönəlib ki, belə idman obyektlərinin istifadəyə verilməsi bu məqsədin həyata keçirilməsində mühüm rol oynayır.

**AZƏRTAC**



# 2 saylı şəhər xəstəxanasının yeni binasının açılışı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.**

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 150 çarpayılıq xəstəxananın bina və qurğuları 6,1 hektar sahədə inşa edilib, tikililərin ümumi sahəsi 18 min 288,4 kvadratmetrdir.

Qeyd edildi ki, səhiyyə ocağının tikinti işlərinə 2019-cu ildə başlanılıb və 2022-ci ildə başa çatdırılıb.

Xəstəxana poliklinika, təcili tibbi yardım, 30 çarpayılıq terapiya, 30 çarpayılıq cərrahiyyə, şüa diaqnostika, hemodializ, oftalmologiya, endokrinoloji terapiya, endokrinoloji cərrahiyyə, nevrologiya, 10 çarpayılıq əməliyyat bloku, reanimasiya və sair şöbələrdən, həmçinin laboratoriyadan, digər tikili və qurğulardan ibarətdir.

Müalicə ocağı müasir tələblərə cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar – çoxkəsikli kompüter tomoqrafiyası (KT), rəqəmsal teleskopik rentgen cihazı, rəqəmsal DR rentgen qurğusu, oftalmoloji müayinə üçün mikroskop, oftalmoloji cərrahi əməliyyatlar üçün PHACO AMO cihazı və iki ədəd rəqəmsal stasionar ultrasəs müayinə cihazı ilə təchiz olunub.

Xəstəxananın həyəti abadlaşdırılıb, yaşıllıq sahələri salınıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə son illər Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Bu sahədə aparılan davamlı islahatlar, həyata keçirilən layihələr sayəsində ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyəti və əhatə dairəsi yüksəlib. Görülən işlər əhalinin sağlamlığının qorunmasına, onların hərtərəfli tibbi xidmətlərlə əhatə olunmasına imkan verir ki, bu da vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır.

**AZƏRTAC**



# Macarıstanın Baş naziri Zati-aliləri cənab Viktor Orbana

**Hörmətli cənab Baş nazir!**

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstan arasında yüksək səviyyəli dövlətlərarası əlaqələr və uğurlu əməkdaşlıq məmnunluq doğurur. Möhkəm dostluğun və tərəfdaşlığın yaxşı nümunəsi olan, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətini və dəstəyini, aktual qlobal və regional məsələlərdə oxşar mövqelərdən çıxış etməsini xüsusi qeyd etmək istərdim.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə ölkələrimiz arasında genişlənmiş strateji tərəfdaşlığın, həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 oktyabr 2023-cü il**

# Z.A.Əsgərovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ziyafət Abbas oğlu Əsgərov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 oktyabr 2023-cü il**

# Azərbaycan ilə Tacikistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

**Oktyabrın 23-də Tacikistanın müdafiə naziri, general-polkovnik Şerali Mirzonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**



Müdafiə naziri, general-polkovnik Zakir Həsənov nümayəndə heyətini salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər barədə danışıb.

Azərbaycana səfərindən məmnunluq ifadə edən Tacikistanın müdafiə naziri isə öz növbəsində səmimi görüşə görə minnətdarlığını çatdırıb.

Görüşdə Azərbaycan ilə Tacikistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edilib.

**XQ**

# Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədrinin bəyanatı rədd edilir

**Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rotun İrəvana səfəri zamanı verdiyi qeyri-obyektiv, mövcud reallıqları təhrif edən bəyanatları təəssüf doğurur.**

Bu barədə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin etiraz bəyanatında bildirilib.

"Biz, öz növbəmizdə, almaniyalı həmkarımızın Ermənistanın 30 il ərzində Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərə bağlı, o cümlədən həm Ermənistanda, həm də Azərbaycanda mədəni abidələrin dağıdılması, tarixi irsin silinməsinə görə Ermənistana sanksiyaların tətbiq olunması üçün çağırış etmədiyi halda, Azərbaycanı sanksiyalarla hədələməsini siyasi riyakarlıq kimi qiymətləndirir, ikili standartların bariz nümunəsi kimi qəbul edirik.

Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rotun verdiyi bəyanatları bir daha qətiyyətlə rədd edirik", - bəyanatda vurğulanır.

**XQ**

# Ordumuz heç zaman indiki kimi güclü olmayıb

## Bu, artıq hamının qəbul etdiyi həqiqətdir



**Azərbaycan Prezidenti İlham Əliyevin son 20 ildə respublikamızda həyata keçirdiyi qətiyyətli siyasi fəaliyyətin, çoxistiqamətli proqramların, elmi şəkildə əsaslandırılmış layihələrin və gənc müstəqil dövlətimizin beynəlxalq aləmin əsas aktorlarından birinə çevrilməsi üçün yeritdiyi xarici siyasətin istənilən səhifəsi mükəmməl sonluqla kifayətlənmişdir. Ona görə də ölkə əhalisinin, dünyanın hər yerindəki soydaşlarımızın və beynəlxalq aləmdəki tərəfdaşlarımızın qədirbilənliklə qeyd etdiyi "Əsrə bərabər 20 il" münasibətilə yazı hazırlamaq üçün mövzu qəhətliyi ola bilməz.**

Ancaq mən bu mövzulu ilk yazıda ordu quruculuğunda əldə etdiyimiz nailiyyətləri (təbii ki, ordumuzun uğurları başqa yazının mövzusu olacaq) xatırlatmaq istəyirəm. Çünki bu 20 illik günlərində işğalçı ölkənin köhnə generallarından birinə cavab vermək istəyirəm. Doğrudur, 9-10 il əvvəl də bu məzmunda həmin sarsağa cavab verməyə çalışmışdım. O zaman yazmışdım ki, "cücəni payızda sayarlar". İndi isə cücəyə dönmüş o generaldan soruşmaq istəyirəm ki, ay Matevosyan, müharibə ilə teatr səhnəsinin fərqini anladınmı?

Söhbət ondan gedir ki, Rusiyadakı erməni diasporunun təmsilçiləri ilə görüşən Ermənistan ordusunun generalı Qrant Matevosyan Azərbaycan Silahlı Qüvvələrini ələ salmaq, aşağılamaq məqsədilə demişdi ki, müharibə teatr tamaşası deyil ki, yaxşı aktyorlar yetişdirərək mükəmməl səhnə əsərinə nail olasan. Müharibə sənəti elə bir sənətdir ki, azərbaycanlılar onu bizim kimi bilməzlər.

... O zaman hələ Aprel döyüşləri də olmamışdı, bir güllə belə atmadan düşmən əsarətindən min hektarlarla ərazimizi azad etdiyimiz Günnüt əməliyyatı da, Tovuz döyüşləri də, erməni generallarının gizlənmək üçün siçan deşiyi axtardığı, baş nazir Nikol Paşinyanın həmin deşiklərin hansındasa kapitulyasiya aktını imzalamasına səbəb olan İkinci Qarabağ müharibəsi də, lokal antiterror əməliyyatları da.

Fikrimizcə, həmin faktlardan ikisini – Aprel döyüşlərini və Günnüt əməliyyatını xüsusilə yada salmaq zərurəti var. Çünki həmin iki fakt düşmən üzərindəki şanlı Zəfərimizə gedən yolun başlanğıcı olsa da, o qədər də tez-tez xatırladılmır.

Belə ki, ordumuz düşmənə öz yerini göstərmək iqtidarında olandan sonra – 2016-cı ilin aprel ayında dünya erməniliyinə sarsıdıcı zərbə vurmuşdu. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı.

Bundan başqa, Azərbaycan Ordusunun mühüm uğurlarından olan Günnüt əməliyyatı zamanı Aprel döyüşlərindən iki il sonra — 2018-ci ilin mayında baş vermiş və Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, eləcə də, Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçmişdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələnmiş, qarşıya qoyulan məqsədə nail olunmuşdu.

İnanırıq ki, bütün bunlardan sonra Qrant Matevosyan kimi "teatr generalları" Cənubi Qafqazda hansı ordunun nəyə qadir olduğunu anlamış olarlar. Anlamayıblarsa, öyrənmək heç zaman gec deyil.

İndi isə Azərbaycan Ordusunun gücünü anlamış erməninin – o, general yox, Paşinyan iqtidarına müxalifətdə dayanan alim, ziyalıdır –fikirlərinə nəzər salaq. İkinci Qarabağ müharibəsinin məlum nəticələrindən sonra Facebookdakı "Ermenihaber" səhifəsində Nikol Paşinyanı "yıxıb-sürüyən" həmin alim yazırdı ki, İlham Əliyev Ermənistan ərazisində hansı avtomobilin hayana getdiyini öyrənmək üçün kosmosa rabitə peyki adı ilə kəşfiyyat peyki göndərəndə, ordusunu dünyanın ən müasir silahları ilə təchiz etmək üçün milyardlar sərf edəndə, ölkədə silah istehsalına başlayanda, hərbçilərinin NATO təcrübəsi əsasında hazırlanmasını təmin edəndə, ölkəsinin dost və müttəfiqlərini hər il, hər ay artıranda Ermənistanın rəhbərləri nə ilə məşğul olmuşdular? Həmin illərdə bizimkilər Ermənistan dövlətinin sərvətlərini və diasporun ianələrini bölüşdürmək üçün bir-birinə tələ qururdular. Ona görə də 44 günlük müharibənin nəticəsi heç kəs üçün gözlənilməz deyil.

Fikrimcə, Azərbaycan Prezidentinin son 20 ildəki siyasi fəaliyyətinin qiymətləndirilməsi prosesində bu "abırlı erməni"nin fikirləri də maraq doğurmaya bilməz. Yeri gəlmişkən, rus müəlliflərindən hansınınsa İkinci dünya müharibəsi haqqında olan yazısında Böyük Britaniyanın Baş naziri olmuş Uinston Çörçillə istinadən xatırlanan belə bir fikir var idi: "Dostlarımızın və müttəfiqlərimizin mülahizələri bizi qane etməməlidir. Odur ki, rəqiblərin bizim haqqımızda düşüncələrini də öyrənməliyik." O baxımdan erməni alimin düşüncələrinin xatırlanması da təqdirəlayiqdir.

O ki qaldı, Azərbaycanda ordu quruculuğunun səviyyəsinə, yada salaq ki, ABŞ-ın "Global Firepower" saytının apardığı araşdırmadan sonra 2023-cü ilin ən güclü ordularının siyahısında – şirkət hərbi hissələrin sayı, maliyyə vəziyyəti, maddi-texniki təminat, hərəkətlilik və coğrafi mövqe kimi ölkələrin bir çox xüsusiyyətlərinə əsaslanır – Azərbaycan 57-ci, Türkiyə 11-ci, Ermənistan isə 94-cü sırada yer tutub. Xatırladaq ki, bu reytinq göstəricisi yanvarda paylanılmışdı.

Yəni 25-30 il əvvəl bir qrup terrorçu, təxribatçı, başkəsən, vəhşi erməninin cavabını verə bilməyən Azərbaycan Ordusu qısa müddətdə dünyanın 200 ölkəsi arasında 57-ci yeri tutub. Bu, kiçik göstərici deyil. Azərbaycan Ordusu ona görə belə sürətli inkişaf edib ki, ölkəmizin dövlət büdcəsində Silahlı Qüvvələrə ayrılan vəsait birinci yerdə qərarlaşıb. Bu, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, güclü hərbi-sənaye kompleksinin yaradılmasına təkan verib. Prezidentin müəyyən etdiyi düstura uyğun olaraq, Vətən müharibəsində Azərbaycanın güclü ordu modeli bir sistem olaraq qalib gəlib.

Dövlət başçımız ötən dövrdə qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsinə çatdırılması üçün lazım olan bütün addımları atıb. Əməliyyat işləri, idarəetmə təkmilləşdirilib, Türkiyə Ordusu ilə birlikdə keçirilən təlimlərdən əlavə, NATO ilə bağlanmış müqavilələr çərçivəsində də təkmilləşdirilmələr aparılıb.

Ekspertlər yazırlar ki, Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası bütün istiqamətlərdə möhkəmləndirilib, yeni silah sistemləri alınaraq istifadəyə verilib. Bundan başqa, Azərbaycan dövləti özünün güclü müdafiə sənayesini yaradıb, ölkədə müasir silahların istehsalına başlanılıb.

Bütün bunların nəticəsi olaraq, biz iki əsr gözləməli olduğumuz tarixi fakta – Cənubi Qafqaza göndərilmiş ermənilərin fitnə-fəsad torunun dağıdılmasına və onarın yaratdıqları çoxsaylı miflərin ifşasına nail olduq. İş o yerə çatdı ki, Azərbaycan Ordusunun ermənilərdə yaratdığı xof nəticəsində biz otuz il işğal altında qalan üç rayonumuzu bir güllə atmadan belə azad etdik. Ermənilərin xahiş-minnətlərindən sonra bütün hərbi əməliyyatların tam dayandırılması barədə imzalanan bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi.

Onu da əlavə edək ki, 2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda keçirilən möhtəşəm Zəfər paradı bizim ordu quruculuğumuzun zirvəsi idi. Həmin gün Azərbaycan Silahlı Qüvvələrinin malik olduğu müasir silah və texnikalarla yanaşı, düşmənin döyüş meydanında məhv edilən və ya qənimət kimi ələ keçirilən silah-sursat və hərbi texnikaları da nümayiş olunmuşdu.

Sonda xatırladaq ki, bu il iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağını təqdim edərkən, işğalçı dövlətə olduqca konkret mesaj göndərmişdi: "Biz son iki il yarım ərzində Ordumuzu böyük dərəcədə gücləndirmişik. Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır".

Başa düşmədilər və ona görə də 19-20 sentyabr əməliyyatlarına zərurət yarandı. İndi həmin anlamazların bəziləri Bakıdakı məlum ünvanda "çay içir", bəziləri beynəlxalq aləmdən kömək dilənir, bir çoxu isə səhər-axşam, gecə-gündüz "Vaxtında Azərbaycanın çağırışlarına müsbət cavab versəydik, bu hala düşməzdik" – peşmançılığını təkrarlamaqla təsəlli tapırlar.

İndi artıq rəqib düşərgədəkilərin hamısının anladığı bir həqiqət var: "Azərbaycan Ordusu heç zaman olmadığı səviyyədə güclüdür!".

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Fransa – Ermənistan hərbi əməkdaşlığı və "Yaşma" xofu

## Suren Papikyanın Paris səfərinə sözardı

**(əvvəli 1-ci səhifədə)**

Bir müddət əvvələdək belə fikir var idi ki, NATO üzvü olan Fransa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv Ermənistana hərbi yardım göstərə bilməz. Yəni, bunu Fransadakı siyasi dairələr vurğulayırdılar. Çox



güman ki, məqsəd İrəvanı KTMT-dən uzaqlaşdırmaq idi. Lakin zaman göstərdi ki, anti-Rusiya və anti-KTMT ritorikasına köklənməsinə və mövcud istiqamətdə siyasi etikadan kənar ən ağlasığmaz gedişlərə əl atmasına baxmayaraq, baş nazir Nikol Paşinyan administrasiyası Moskvanın hakim rol oynadığı hərbi blokdan çıxacağını açıq şəkildə bildirməyib. Nikol, sadəcə, KTMT-nin öz əməlləri ilə Ermənistanı tərk etdiyini vurğulayıb. Elə fon yaradıb ki, sanki ölkəsində belə bir təşkilata ehtiyac yoxdur. Belə bir qənaətə gəlirik ki, Paşinyan Fransanın təhrikinə ehtiyatla yanaşır. Əlbəttə, buna ehtiyat demək mümkündürsə...

Görünür, Paris ehtiyatlılığı başa düşür. Yəni, Ermənistanın KTMT-dən çıxmasına dair sərt direktivlər ortaya qoymur. Çox güman ki, Fransada İrəvana qurumda qalmaq şərtilə də yardımın mümkünlüyünü düşünürlər. Digər yandan, KTMT-də qalmaq müəyyən mənada sığortadır. Ən azından Rusiyanın Ermənistana açıq hərbi müdaxiləsi mümkünsüzdür. Paşinyanın bəzi məqamlarda Kremlə münasibətdə əndazəni aşmasının səbəbi də çox güman ki, elə budur.

Hazırda Fransanın Ermənistanı NATO sistemində olmayan fransız silahları ilə təchiz edəcəyi bildirilir. Şübhəsiz, Papikyan S.Lekornyu ilə məsələnin detallarının müzakirəsini aparıb. Elə Kolonnanın bir neçə həftə əvvəl bildirdiklərindən hasil olan da bu idi. Amma demək olmaz ki, Ermənistana NATO istifadəsində olmayan silahlar verilməyəcək. Necə deyərlər, gecə qara-cücə qara...

Hər halda, söhbət NATO ölkəsi olan Fransanın Ermənistana, belə demək mümkünsə, müqaviləli hərbi dəstəyindən gedəcək. Belədə alyansın özünün paradiqmaları pozulmuş duruma gələcək ki, əslində, Qərb məsələyə çox da önəm vermir. Nəhayət, NATO-nun timsalında, bütövlükdə, Qərbin özünün anti-Rusiya köklənişi var. Əlbəttə, hədəf Ermənistanı Azərbaycana qarşı silahlandırmaqdırsa, Fransa başda olmaqla ermənipərəstlər Bakının, guya, Rusiyameyilli olması təsəvvürünü də beynəlxalq ictimai rəyə sırımaqdadırlar. Deməli, Paris əsaslandıra bilər ki, İrəvana dəstəyi yalnız Bakıya qarşı deyil, böyük hədəfdə Moskva var. Elə əsaslandırır da və bununla lokal Ermənistan marağına qlobal libas biçməyə çalışır. Əlbəttə, qlobal məram Rusiyanı Cənubi Qafqazdan tamamilə sıxışdırmaqdır. Bunu tərəfdaşlarının yanında qabartmaq Fransaya imkan verir ki, öz missiyasını aktuallaşdırsın və beynəlxalq ictimai rəyə böyük işlə məşğul olduğu mesajını versin. Belə bir mesaj ona hava-su kimi lazımdır. Çünki hazırda rəsmi Parisi sayan yoxdur. Onun hansısa formada özünütəsdiqə ehtiyacı var və bunun üçün Cənubi Qafqaz platforması çox cəlbedicidir. Təbii ki, bu platorma, eyni zamanda, təhlükəlidir. Ancaq avantüristlər həmin təhlükəni görməzdən gəlirlər...

***

Onu da bildirək ki, Fransanın Ermənistana hərbi dəstək məsələsi yalnız indinin söhbəti deyil. Məlum olduğu kimi, Parisin İrəvandakı ali diplomatik nümayəndəliyində, yəni Fransa səfirliyində hərbi missiya yaradılıb, attaşe təyin edilib. K.Kolonna hələ aprel ayında bildirmişdi ki, bu addım ölkəsi ilə Ermənistan arasında münasibətləri daha da dərinləşdirəcək. Həmin vaxt Fransanın nüfuzlu "İntelligence online" nəşri yazmışdı ki, Paris İrəvana daimi silah ixracı sisteminin qurulması üçün hazırlıqlar görməyə başlayıb. Yeri gəlmişkən, apreldə Fransanın Silahlandırma üzrə Baş Direktorluğunun nümayəndə heyəti Ermənistanda səfərdə olmuşdu. "İntelligence online" isə Ermənistanın 2022-ci ildə istefa vermiş prezidenti Armen Sarkisyanın Fransa hərbi sanayəsinin əsas kommersiya agenti sayılmasından da söz açmışdı. Məlum olduğu kimi, Sarkisyan "Thales", "Areva", "Alstom" kimi hərbi şirkətlərin maraqlarını təmsil edirdi.

O da məlumdur ki, Ermənistanın Fransadan silah almaq üçün yetərincə vəsaiti yoxdur. Yəni, Paris-İrəvan hərbi əməkdaşlığında məqsəd heç də birincinin vəsait qazanması deyil. Əgər söhbət gəlir əldə etməkdən getsəydi, Fransa Azərbaycana silah satardı. Amma bunu etmir. Fikrimizin təsdiqi üçün 2019-cu ili yada salaq. Həmin vaxt rəsmi Paris ölkəmizlə imzalanmalı olan 350 milyon dəyərində hərbi-texniki əməkdaşlıq haqqında müqavilədən imtina etdi. Ermənistanda səfərdə olan Fransa prezidenti Emmanuel Makron Azərbaycana gəlməkdən daşındı və bu, həm də sözügedən sazişin ləğvi idi...

Fransa ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun həmsədri olmuşdu. Bunu düşünərək daha əvvəlki dövrə nəzər salaq. Görürük ki, Paris 2014-cü ildə də işğalçı Ermənistanla hərbi sahədə işbirliyi gerçəkləşdirmişdi. O zaman aparılmış ikitərəfli danışıqlarda ölkələr arasında hərbi müdafiə sahəsində əməkdaşlıq planı imzalanmışdı. Oxşar sənəd 2010-cu ildə həmin vaxt Ermənistanın müdafiə naziri postunu tutmuş Seyran Ohanyanın Fransaya səfəri zamanı da ərsəyə gəlmişdi.



***

Əvvəldə də bildirdik ki, Fransa Ermənistanı illüziya bataqlığına sürükləyir. Bunu siyasi dəstəklə edirdi, indi isə daha təsirli vasitəyə – hərbi yola əl atır. Ancaq məlumdur ki, Fransanın hərbi sistemi bir o qədər mükəmməl deyil. Yəni, Paris siyasət səhnəsində olduğu kimi, hərbi müstəvidə də müasir dövrün tələblərindən uzaqdır. Deməli, Ermənistanın sərəncamında olan keyfiyyətsiz Rusiya silah-sursatlarını heç də daha mükəmməl Fransa silahlarının əvəzləyəcəyini söyləmək mümkünsüzdür.

Digər tərəfdən, silah heç də tam mənada həlledici deyil. Əsas məsələ ondan istifadədir. Azərbaycanda illərlə müasir silahlarla davranmaq vərdişlərinə malik yetkin hərbçi nəsli formalaşıb. Ermənistanda isə belə bir durum istisnadır. Yəni, başqa tərzdə desək, fransızlar ermənilərə müasir silah versələr də, onların canlarından "Yaşma" qorxusunu çıxarmaları mümkünsüzdür. Bunun üçün illər lazımdır. Nəticə etibarilə Fransanın verdiyi illüziya motivinin vəziyyəti Ermənistan üçün daha da dərinləşdirəcəyini söyləmək mümkündür. İllüziyanın dərinləşməsi isə ölkənin gələcək mövcudiyyətini şübhə altına qoymaq üçün əsasları aktuallaşdırır. Nəzərə alsaq ki, müasir Ermənistan Respublikası əzəli Azərbaycan torpaqlarında yaranıb, o əsasların olduğunu da vurğulaya bilərik.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Stratfor”un proqnozları:

# Ermənistanın anti-Azərbaycan ritorikası və işğal məntiqi




**Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. Bunu istər ölkəmizin Prezidenti İlham Əliyev, istərsə də digər rəsmilərimiz dəfələrlə bildiriblər. Əlbəttə, bizim üçün Qərbi Azərbaycana qayıdış məsələsi önəmlidir. Ancaq dövlətimizin başçısının vurğuladığı kimi, bu qayıdış dinc məqsədlidir. Hətta Prezident İlham Əliyev oktyabrın 17-də Füzuli Şəhəri Günündə şəhərə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə vurğulayıb ki, ölkəmiz Zəngəzura tanklarla yox, minik maşınları ilə qayıdacaqlar. Bununla belə, Ermənistanda Azərbaycanın güc yolundan istifadəsi mövzusunda qorxu var. Hərçənd, buna daha çox qorxunun imitasiyası demək mümkündür. Bəs, imitasiya nəyə görədir?**

Əlbəttə, Azərbaycanın güc yolu ilə məqsədinə çatması baxışını tirajlamaq Ermənistan üçün sərfəlidir. Birincisi, İrəvana anti-Azərbaycan ritorikasını diri saxlamaq həmişə lazımdır. Zəngəzur amili də bu baxımdan vacibdir. İkincisi, Ermənistan beynəlxalq aləmdə özünü məzlum kimi göstərmək yolu tutur. Məzlum olmaq iqtisadi cəhətdən səmərədir. Nikol bu yolla Qərbin davamlı maliyyə yardımına ümid bəsləyir.

Digər tərəfdən, əslində hazırda bəzi Qərb dairələri də Azərbaycanın Zəngəzura hücum çəkəcəyi məntiqini ortaya atmaqdadırlar. Erməni mediası bu fikirləri həvəslə yayır. Əlbəttə, demək olmaz ki, media mümkün təhlükəyə qarşı cəmiyyətdə müqavimət formalaşdırmağa çalışır. N.Paşinyan və komandası mövcud məntiqi gündəmdə saxlamaqla, özlərinin işğalçı niyyətlərini, itirilmişləri bərpa istəklərini və bunun üçün güc yolundan yararlanmaq planlarını bir növ ört-basdır edirlər. Nəzərə alaq ki, Ermənistan–Fransa hərbi əməkdaşlığı güclənməkdədir. Parisin İrəvanı özünün Cənubi Qafqazla bağlı avantürist məqsədlərində alətə çevirdiyi göz önündədir.

Onlar Azərbaycanın Zəngəzura hücumu ilə bağlı məsələni gündəmdə saxlamaqla, eyni zamanda, anti-Rusiya ovqatını ölməyə qoymurlar. Onlar beynəlxalq aləmdə belə rəy formalaşdırırlar ki, Rusiya Azərbaycanın köməyi ilə Ermənistan torpaqlarını işğalda saxlamaq siyasətini gerçəkləşdirməyi düşünür. Beləliklə, Cənubi Qafqazı ümumən Qərb–Rusiya qarşıdurmasının bir cəbhəsi eləməyə çalışır.

Bütün bunların fonunda regionda Türkiyə amilinin də önəmi vurğulanmaqdadır. Qeyd edək ki, son zamanlar Ermənistanda da Ankara əleyhinə çoxdandır gündəmə gəlməyən baxışlar irəli sürülməkdədir. N.Paşinyan Avropa Parlamentindəki çıxışında Türkiyənin Azərbaycanla birlikdə Ermənistanı blokadada saxladığını dilə gətirmişdi. Bu, təsadüf sayıla bilməz. İrəvanda yaxşı anlayırlar ki, Zəngəzur dəhlizi Ankara üçün böyük önəm daşımaqdadır. Əslində, bunu dünyada da gözəl dərk edirlər. Ona görə, məsələn, yunan nəşri “Pentapostagma” yazır ki, Türkiyə və Azərbaycan Ermənistana cəbhə aça bilər. Nəşrin iddiasına görə, Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus F-16 qırıcıları “Mustafa Kamal Atatürk-2023” təlimlərində iştirak üçün Azərbaycana gəliblər. Qəzet təlimlərin 25 müxtəlif istiqamətlərdə, o cümlədən Bakı, Naxçıvan və Qarabağda təşkilinə diqqət yetirərək yazıb ki, Bakı və Ankara birgə təlimlər vasitəsilə güc göstərir və İrəvanı Zəngəzur dəhlizinin açılış şərtlərinin qəbuluna razı salmaq məqsədi güdür.

Qeyd edək ki, Zəngəzur dəhlizi müstəvisindəki məsələlərə ABŞ-ın nüfuzlu analitik mərkəzi sayılan “Stratfor” da yer ayırıb. Mərkəzin yayımladığı məqalədə deyilir ki, Azərbaycanın Ermənistanın cənubunu və Zəngəzur dəhlizini zorla ələ keçirməsi perspektivi var. Lakin “Stratfor” bu qənaətdədir ki, Bakı məqsədinə çatmaq naminə nisbətən kiçik ərazi müdaxilələri həyata keçirəcək və sərhədyanı bölgələri atəşə məruz qoymaqla kifayətlənəcək. “Nəzərə alsaq ki, dünyanın digər böhranları diqqəti yayındırır. Ermənistanın mövqeyi nisbətən zəifdir. Azərbaycanın indi işğala başlamaq və Zəngəzur dəhlizini zorla ələ keçirmək üçün doğru zaman olduğunu düşünməsi şansı var.




Ancaq Azərbaycanın Ermənistanı işğalı nisbətən az ehtimal olunan ssenari olaraq qalır” kimi fikirlərin yer aldığı məqalədə belə qənaətə gəlinib ki, Bakının məqsədinə daha minimal səviyyəli hərbi əməliyyatlarla çatmağı düşünməsinin bir neçə səbəbi var. Birincisi, Azərbaycan Ermənistandan daha böyük və daha yaxşı təchiz olunmuş hərbi gücə malikdir. Buna görə ölkə yalnız sülh danışıqlarının sürətli davamı üçün Ermənistan ərazisini ələ keçirə və özündə saxlayacağına inana bilər. İkincisi, Bakının indi hücuma başlamağın Qərbdən irimiqyaslı iqtisadi sanksiyalara səbəb olma ehtimalının azlığını hesablaması mümkündür. Çünki Avropa və ABŞ Azərbaycan neftinin və təbii qazının alışını artırıb. Üçüncüsü, Azərbaycan, yəqin ki, regional oyunçuların və beynəlxalq ictimaiyyətin diqqətinin Ukraynada və Qəzza zolağında davam edən digər böhranlara cəmləşdiyinə inanır və hesab edir ki, onun hərbi əməliyyatlarının qarşısı alınmayacaq. Nəhayət, 2020-ci ildən bəri davamlı silsilə hərbi və diplomatik uğurlara imza atan Azərbaycan dövləti yuxarıda göstərilən amilləri nəzərə alaraq, belə bir hərbi əməliyyatın tez bir zamanda qələbə qazana biləcəyinə həddən artıq arxayın ola bilər.

Maraqlıdır ki, bütün bunları diqqətə çatdıran “Stratfor” analitikləri, eyni zamanda, Azərbaycanın Ermənistan ərazisindən tranzit marşrutunun yaradılmasına təcili ehtiyacın duyulmadığını nəzərə aldığını da qabardırlar. Onlar bildirirlər ki, Azərbaycanın Naxçıvanla Gürcüstan və Türkiyə, eləcə də İran vasitəsilə əlaqə saxlamaq imkanı var: “Əgər İran və Azərbaycan münasibətləri normallaşdırsalar, bu, Ermənistanı regional tərəfdaşlarından daha da təcrid edəcək və onun regionda artan Şərq-Qərb ticarətində uduzmasına səbəb olacaq ki, İrəvan belə aqibətdən qaçmaq üçün Bakıya güzəştə gedə bilər. İkincisi, Azərbaycanın ən yaxın müttəfiqi olan Türkiyə Suriyaya hərbi müdaxilə, bir sıra digər regional və daxili məsələlərlə məşğuldur. Ankara çox güman ki, regional güc balansını pozmaq, Qərb, Rusiya və İranla münasibətlərinə xələl gətirəcək, eyni zamanda özünün Ermənistanı təsir dairəsinə cəlb etmək məqsədini sarsıdacaq genişmiqyaslı işğal planını dəstəkləməz.

***

Yazının əvvəlində bildirdiyimiz bir fikrin üzərinə yenidən gələrək vurğulayaq ki, Azərbaycanın Zəngəzura qayıdışı dinc məqsədli xarakterə malikdir. Prezident İlham Əliyev bu fikri heç də təsadüfən səsləndirmir. Dövlətimizin başçısı belə mövqe ortaya qoymaqla Cənubi Qafqaz platformasını ümumi Qafqaz evi müstəvisində gördüyünü diqqətə çatdırır. Bu müstəvidə başlıca vurğu sülhün, əməkdaşlığın və qarşılıqlı faydanın üzərinə qoyulur. İstər Azərbaycandan, istərsə də Türkiyədən dəfələrlə gələn mesajlar Ermənistanı da mövcud düzəndə görmək arzusunun ifadəsinə əsaslanıb.

Lakin İrəvan xoşməramlı çağırışlara adekvat reaksiya göstərməyib. Nəinki göstərməyib, Qarabağ avantürasını diri saxlamağa cəhd göstərib. Ölkə bu gün də öz “ampluasındadır”. Bir daha bildirək ki, Ermənistan xüsusən də Fransanın köməyi ilə silahlanmaqda, bütün platformalarda anti-Azərbaycan mövqe nümayiş etdirməkdədir. Dünyanın aparıcı beyin mərkəzləri və media orqanları isə ölkəmizin güc ritorikasına üstünlük verəcəyini məhz İrəvanın barışmazlığı və reallıqları dəyişmək istəklərini duyaraq irəli sürürlər.

Əlbəttə, mütləq mənada demək olmaz ki, adını çəkdiyimiz analitik mərkəzin, yunan nəşrinin, eləcə də digər bu sayaq fikirlər irəli sürənlərin qənaətləri doğrudur. Hadisələrin necə cərəyan edəcəyini zaman özü göstərəcək. Həm də onu deməliyik ki, Azərbaycan dövləti başda Prezident İlham Əliyev olmaqla nəyi nə zaman və necə edəcəyini çox yaxşı bilir. Mövcud dəst-xəttə beynəlxalq qurumlar yaxşı bələddirlər. Bu qurumların hazırkı durumda müxtəlif fikirlər irəli sürmələrinə gəlincə, onların yanaşmaları və təhlilləri daha çox Ermənistana subliminal mesaj vermək, ölkəyə reallıqları anlamaq və qəbul etmək üçün düşünmək şansı yaradır. Bəs, İrəvan düşünürmü? Təəssüf ki, yox! Diqqət edək, Paşinyan tərəfdarları, bütövlükdə, Ermənistan mediası bu qədər təhlillərin içərisində doğru məqamları deyil, daha çox Azərbaycanın işğalı məntiqini qabardırlar. Halbuki, daha rasional fikirləşmələri və nəticə çıxarmaları şərtdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hayastan Rusiyaya “borc əvəzinə ödənən əmlak”dır

## 2002-ci ildə iki ölkə arasında imzalanmış müqaviləni erməni ekspert belə xarakterizə edir

**Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirindən sonra Ermənistan–Rusiya münasibətlərində buna qədər də müşahidə edilən soyuqluq, deyəsən, özünün “buzlaşma” dövrünə qədəm qoyub. Rəsmi İrəvanın son vaxtlar ölkənin təhlükəsizliyi ilə bağlı səsləndirdiyi ittihamların Bakıdan daha çox Kremlə ünvanlandığı aydın görünməkdədir. Əslində, iki ölkə arasında münasibətlərin sərinləşməsi İkinci Qarabağ müharibəsindən sonra açıq şəkildə hiss olunurdu. Paşinyan iqtidarını daha çox özündən çıxaran hal ondan ibarətdir ki, Qarabağda sülhyaratma missiyasını yerinə yetirən Moskva və onun təbliğat maşını İrəvanın “problemlərinə” diqqət yetirməyib. Bu səbəbdən Ermənistan mediasında tirajlanan materiallarda Rusiyanın Qarabağda yaşananlara biganəliyi qabardılır, konkret seqmentlər qınaq və tənqid obyektinə çevrilir.**



Təxminən iki ay bundan əvvəl Ermənistan baş naziri İtaliyanın “La Republica” qəzetinə verdiyi müsahibəsində təhlükəsizlik məsələsində ölkəsinin yalnız Rusiyaya bel bağlamasını “strateji səhv” adlandırmışdı. Nikol Paşinyan bir az da irəli gedərək, Rusiyanın Cənubi Qafqaz bölgəsini “tamamilə tərk edə biləcəyi” versiyasını irəli sürmüşdü. Düzdür, Hayastan liderinin açıqlamasına dərhal münasibət bildirən Kreml regionu tərk etmək niyyətində olmadığını, Paşinyanın təhlükəsizliklə bağlı Rusiyaya ünvanladığı ittihamlarına isə “fərsiz rəqqas”la bağlı məşhur misalı gətirməklə cavab vermişdi. “Erməni cəmiyyəti getdikcə daha çox Rusiyadan üz döndərərək Avropa İttifaqı, ABŞ və İrana üstünlük verir”. Bu barədə “Hayastan” xeyriyyə fondunun baş direktorunun müşaviri Robert Ananyan özünün tvitter səhifəsində yazıb. O qeyd edib ki, uzun illər Rusiya təbliğatı və aparıcı siyasi qüvvələri erməniləri aldadaraq, Rusiyanın Ermənistanın yeganə müttəfiqi olduğunu iddia etməklə yanaşı, ABŞ, Fransa, NATO və Aİ-yə qarşı qarayaxma kampaniyası həyata keçiriblər.

“Amma İkinci Qarabağ müharibəsi göstərdi ki, Rusiya Ermənistanın qeyd-şərtsiz dəstəkçisi deyil. Bu gün ermənilər daha çox Qərbə arxalanmağa üstünlük verirlər”–yazan “xeyriyyəçi jurnalist” Rusiya xüsusi xidmət orqanlarının ölkəsində dərin kök saldığını, özünə loyal siyasi elita formalaşdırdığını bildirir.

**STATİSTİKA:** Beynəlxalq Respublikaçılar İnstitutunun sorğusunda iştirak edən ermənilərin cəmi 10 faizi Rusiya ilə münasibətlərin hazırkı vəziyyətini “çox yaxşı”, 40 faizi “bir qədər yaxşı”, 15 faizi “çox pis”, 34 faizi isə “bir qədər pis” kimi qiymətləndirib. Başqa sözlə, respondentlərin təxminən yarısı Ermənistan–Rusiya münasibətlərinin hazırkı durumunu mənfi qiymətləndirib.

Bəli, Ermənistan ictimaiyyəti artıq Moskvaya “himayədarı” kimi baxmır. Bu, əvvəllər Ermənistanda danılmaz “xilaskar” obrazına malik olan Rusiya Federasiyası üçün fəlakətli dərəcədə aşağı göstəricidir. Ananyanın açıqlamasına görə, eyni sorğuda iştirak edən ermənilərin 63 faizi Ermənistanla Fransa arasında münasibətlərin indiki vəziyyətini “çox yaxşı”, 33 faizi isə “bir qədər yaxşı” kimi qiymətləndirib. Bu siyahıda ABŞ İrandan sonra üçüncü yerdədir. Ermənilərin 21 faizi Ermənistan–ABŞ münasibətlərini “çox yaxşı”, 67 faizi isə “bir qədər yaxşı” kimi dəyərləndirib. Avropa İttifaqı Ermənistanda dördüncü müsbət reytingə malikdir: ermənilərin 18 fazi Ermənistan-Aİ münasibətlərinin vəziyyətini “çox yaxşı”, 68 faizi isə “bir qədər yaxşı” kimi qiymətləndirib.

Robert Ananyan paylaşımında maraqlı müşahidələrini də qeyd edir: “Ermənistan Rusiya üçün “borca görə aldığı əmlak”dır. İrəvanın Moskva ilə imzaladığı ən biabırçı sövdələşmələrdən “Borc üçün mülk” adlanan müqavilədir. Həmin razılaşmanı Moskva ilə 2002-ci ilin noyabr ayında Ermənistanın ən rusiyapərəst rəhbərlərindən biri –Robert Koçaryan imzalayıb. Razılaşmaya əsasən, Ermənistan 1994-1998-ci illərdə yığılmış 95 milyon ABŞ dolları həcmində borcun müqabilində Rusiyaya ölkənin ən vacib 5 obyektini – Razdan İES-i, “Mars” zavodunu və 3 dövlət şirkətini təhvil verib. O vaxtdan Moskva əmlakın yeni sahibi kimi bu müəssisələrdən istifadə etmək və sərəncam vermək hüququ əldə edib”. Yəni, ortada aydın görünən həqiqət ondan ibarətdir ki, Rusiya Ermənistan üzərində işğalın “mədəni özəlləşdirmə modeli”ni tətbiq edib. Ananyan haqlı olaraq deyir ki, ölkənin strateji aktivlərini Moskvaya satan Koçaryan adı çəkilən obyektlərin payçılarından biridir: “1998-ci ildə Ermənistan hakimiyyəti “ArmRusqazprom” QSC-ni Rusiyaya “peşkəş” edib və az sonra o, “Qazprom”un tərkibinə daxil edilib. Rusiya ilə qaz sazişini isə 2013-cü ildə Hayastanın üçüncü prezidenti Serj Sarkisyan imzalayıb”. İkitərəfli müqaviləyə əsasən, Ermənistan 2043-cü ilə qədər mavi yanacağı “Qazprom”dan alacaq. Bu isə İrəvanın imtiyazı yox, ona qarşı qurulan siyasi təsir vasitəsidir.

### Ekspert rəyi

**Fərhad MƏMMƏDOV, politoloq**



Rusiya–Ermənistan münasibətlərində müşahidə olunan gərginlik daha çox siyasi ritorikada özünü göstərir. Atılacaq konkret addımlara gəlincə, Moskva ilə İrəvanı bir-birinə strateji xətt bağlayır. İlk növbədə təhlükəsizlik və iqtisadi sahələrdə müttəfiqlik qeyd olunmalıdır.

Biz görürük ki, bu iki sahədə əməkdaşlıqla bağlı hansısa yeni konkret qərarlar yoxdur. Bəli, İrəvan təhlükəsizlik sahəsində Rusiya ilə yanaşı, digər gücləri də ərazisinə cəlb edib. Həmin yeni qüvvələrin bölgədə peyda olması Moskva ilə bərabər Tehranı da narahat edir. Bütövlükdə, bu, regional müstəvidə gərginliyin artmasına səbəb olur. İkinci məqam ondan ibarətdir ki, münasibətlər ritorika səviyyəsində tarıma çəkilsə də, iqtisadi müstəvidə iki ölkə arasında hansısa problemi görmürük. Əksinə, Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi həndəsi silsilə ilə artmaqdadır. Bu isə, öz növbəsində, qarşılıqlı asılılıq vəziyyətini formalaşdırır.

Nikol Paşinyan üçün reytinqinə görə vacib saydığı iki amil var. Birincisi, Ermənistanın təhlükəsizliyi, ikincisi, iqtisadi inkişaf məsələləridir. Hər iki komponent üzrə Rusiyanın rolu böyükdür. Birinci amillə bağlı Paşinyan Moskvanın üzərinə yeriyib, özünə ünvanlanan tənqidləri şimallı müttəfiqinə tərəf çevirirsə, iqtisadi sahədə bu ölkənin inkişafı Rusiyadan aldığı enerji və artan ticarət dövriyyəsi üzərində formalaşır. Yəni, Kremlin əlində Paşinyana və Ermənistana qarşı istifadə edə biləcəyi kifayət qədər rıçaqlar var. Fəqət bu amillər həm də baş nazirin öz əhalisi arasında anti-Rusiya meyillərinin artmasını təşviq etməsinə gətirib çıxarıb. Hesab edirik ki, Rusiya rəhbərliyi yaxın gələcəkdə yenidən Paşinyanla uzlaşmaq yolunu tutacaq. Çünki özünün də resurslarının limiti tükənmək üzrədir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Vaşinqton və Brüssel yeni reallıqla barışıb

## Onlar Bakının sülh danışıqlarının bu formatlarından imtina edəcəyini nəzərə alırlar

**Bakı və İrəvan arasında qarşıdakı Brüssel dialoquna hazırlıqlar gedir. Ermənistan da, Azərbaycan da sülh müqaviləsinin 2023-cü ilin sonunadək imzalana biləcəyini rəsmən bəyan ediblər. Amma bunun harada və hansı formatda baş verəcəyi sualı hələlik açıq qalır. Tərəflərin sülhə gedən yolda üzləşdiyi manеələr, bölgədə maraqları olan güclərin dəyişən konfiqurasiyası, potensial vasitəçilərin təşəbbüsləri barədə "Xalq qəzeti"nin suallarını beynəlxalq hüquq üzrə mütəxəssis, tanınmış siyasi şərhçi Orxan Amaşov cavablandırır.**




**– Orxan bəy, iki ölkə arasında sülhə nail olmaqdan ötrü "3+3" formatının effektivliyi ilə bağlı mövzu son vaxtlar gündəmdədir...**



– Əslində, bu, "3+3" yox, faktiki olaraq, "3+2" formatıdır. Şərti olaraq belə deyilir, çünki potensial olaraq Gürcüstanın bu formatda mütləq iştirak etməlidir. Amma bu, Tbilisinin Moskva ilə aralarındakı münasibətlərdən asılıdır. İndiki vəziyyətdə digər məqam odur ki, Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında böyük fikir ayrılıqları var. "3+3" formatı Bakının təşəbbüsüdür və Ankara tərəfindən dəstəklənib. İran və Rusiya da bu modelə razılaşıblar.

Bu model Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra yaratdığımız vəziyyətdən doğan bir məsələdir. Yəni, biz yeni şərait yaradırıq, buna uyğun atacağımız addımları müəyyənləşdiririk və başqa dövlətləri buna reaksiya verməyə dəvət edirik. Bizim fikrimizcə, "3+3" perspektivə hesablanmış layihədir, ondan dərhal hansısa konkret nəticələr gözləmək olmaz.

Azərbaycanın mövqeyindən yanaşsaq, bu format ümumi strateji kanallarımızın fövqündə bu gün müəyyən taktiki üstünlükləri əldə etməyə hesablanıb. Bu üstünlüklərdən biri kommunikasiya xətlərinin açılması ilə bağlıdır. Artıq Ermənistan tərəfdə belə bir narahatlıq yaranıb ki, Zəngəzurdan keçəcək dəmir yolu ilə bağlı müəyyən təhlükələr var. Çünki Azərbaycan Türkiyə ilə birgə İran üzərindən bu xətti qurmaq istiqamətində ciddi addımlar atıb. Prinsip etibarilə İrəvan da Zəngəzur dəhlizinin açılmasında maraqlıdır.

**– Paşinyanın son açıqlamalarından aydın olur ki, İrəvanın dəhlizlə bağlı əsas narahatlığı ona kimin nəzarət edəcəyindəndir.**

– Bəli, onun əsas narahatlığı dəhlizə məhz Rusiyanın nəzarəti ilə bağlıdır. Sonra avtomobil yolunun istiqaməti ilə əlaqədar əndişəsi var. Onlar bu yolun paralel deyil, ziqzaqvarı olmasını təklif edirlər. Bu bizə imkan verir ki, "3+3" platformasında İrandan keçən xətt vasitəsilə Ermənistanın dəmir yolu istiqamətində addımlarını sürətləndirək. Çünki Avropa İttifaqı bu layihəyə böyük maliyyə vəsaiti ayırmaq niyyətindədir. Amma bu zaman Aİ nəzarətin Ermənistanın yox, Rusiyanın əlində olmasını qəti istəmir. Azərbaycan açıq şəkildə göstərəndə ki, bu xətti İran ərazisindən çəkə bilərik, rəsmi İrəvan dəmir yolu istiqamətində işlərini fəallaşdırıb. Nikol Paşinyanın Avropa Parlamentində çıxışında dəmir yolu ilə bağlı toxunduğu spesifik məqamlar məhz dediyimiz narahatlıqdan qaynaqlanırdı. Zəngəzur dəhlizi Azərbaycanın uzun vədəli layihəsidir. Əslində, biz öz məqsədimizə müxtəlif yollarla nail olmaq istəyirik. Belə yollardan biri İran üzərindən alternativ xətti reallaşdırmağa başlamaqdır. Burada əsas məqsəd Ermənistanı Zəngəzur dəhlizinin açılması ilə bağlı müəyyən addımlar atmağa şirnikləndirməkdən ibarətdir. Digər tərəfdən isə bu layihənin gerçəkləşməsi regionda formalaşmış tarixi reallığa tam uyğundur. Əgər bu formatda Gürcüstan da istirak etsəydi, bunun bir qədər kiçildilmiş miqyasda Azərbaycan–Ermənistan arasında sülh platformasında da görə bilərdik. Amma əfsuslar olsun ki, bu, alınmır.

**– Sizcə, nazirlərin növbəti görüşündə sülh müqaviləsinin imzalanması istiqamətində yeni addımların atılacağına ümid bağlamaq olarmı?**

– Düzünü deyim ki, bu məsələdə o qədər də optimist deyiləm. "3+3" layihəsini bizim ümumi kommunikasiya xətlərinin qarşılıqlı açılması, Cənubi Qafqazda etibarlı sülhün bərqərar olması, bu prosesin bölgənin böyük güclərinin də maraqlarının nəzərə alınması baxımından ideal platforma saymaq olar. Bu, bizi məqsədə doğru aparan platformadır, amma problemlər onun çərçivəsində həll olunmur. Sadəcə olaraq, bu formatda əldə edilən müəyyən üstünlük Azərbaycana imkan verir ki, Ermənistanı bizim üçün məqbul istiqamətə yönəldə bilək. Bu kontekstdə onu qeyd etməliyik ki, "3+3" platformasının əsas üstünlüklərindən biri də həm Şimal-Cənub marşrutu, həm də Şərq-Qərb istiqamətində olan kommunikasiya xətlərinin geniş müzakirəsi üçün imkanlar yaratmasıdır. Rəsmi Bakı İkinci Qarabağ müharibəsindən sonra İrana münasibətdə normal, adekvat mövqe sərgilədi. Azərbaycan, hətta, 2022-ci ilin martında İranla imzaladığı Bəyannamədə göstərdi ki, kommunikasiyaların işə salınması layihələrindən Tehran kənarda qalmasın. Burada İranın müəyyən maraqlarını nəzərə alırıq. Yəni, məsələləri geniş anlamda müzakirəyə çıxarmaqla taktiki üstünlüklər əldə edirik. "3+3" bölgənin gələcəyi ilə bağlı böyük layihədir. Bizim qonşularımız aradan çıxan deyil, Azərbaycan da Cənubi Qafqazdakı və toplaşıb bütün məsələləri bir yerdə müzakirə etməliyik.

**– Bəs alternativ platformalar variantının irəli sürülməsi ehtimalını necə qiymətləndirərdiniz?**

– Azərbaycan Prezidenti İlham Əliyev "Qafqaz evi" layihəsini təklif edib. Bu istiqamətdə Tbilisidə müvafiq danışıqlar aparıla bilər. Bu modelin əsas üstünlüyü odur ki, Azərbaycana elə bir moderator lazımdır ki, o, platforma versin, özünün xüsusi geosiyasi marağı olmasın və birbaşa dialoqu təşkil etsin. Bəli, Bakı birbaşa dialoqda maraqlıdır. Çünki hesab edirik ki, Bakı və İrəvan tet-a-tet, kənar təsirlər olmadan müzakirəyə başlasalar, bütün məsələlərin həllinə nail ola bilərlər. Hələlik Ermənistanın baş naziri Paşinyan Prezident İlham Əliyevlə təkbətək görüşüb ortaya çıxan məsələləri həll etmək istəmir. Yəqin düşünür ki, dövlətimizin başçısının qarşısında dayananda uduza bilər. Ona görə ki, bu adam özünə güvənmir. Paşinyan həmin platformada Fransa kimi bir gücün olmasını, Azərbaycana təzyiq göstərməsini arzulayır. Amma biz Parisi bu platformaların heç birində görmürük.

Bakı üçtərəfli formatı optimal sayır və onu dəstəkləyir. Tbilisidə və Brüsseldə sülh danışıqları həmahəng şəkildə aparıla bilər. Brüssel görüşündə ümumi mənzərənin müzakirəsi təşkil olunar, birbaşa dialoq vasitəsilə isə xarici işlər nazirləri arasında aparılar. Yaxud Prezidentin və baş nazirin köməkçiləri sülh layihəsinin xırda detallarını müzakirə edərlər. Sonra yenidən Brüssel görüşü təşkil oluna bilər. Bu ayın sonunda Belçikanın paytaxtında gözlənilən görüşdə Şarl Mişelin hansısa bəyanatı gözlənilmir. İmzalı hamin sənəd gələcək çərçivə sülh müqaviləsi üçün baza rolunu oynaya bilər. Brüsseldən, Vaşinqtondan gələn siqnallardan hiss edirik ki, gündəmi dəyişmiş beynəlxalq vəziyyətə uyğun açıqlamalar verməyə məcburdurlar. Düzdür, Vaşinqtonda Co Bayden–Şarl Mişel– Ursula fon der Lyayen görüşündən sonra verilən bəyanatda "Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması, sülhün ərazilərin bütövlüyü və Azərbaycanın suverenliyinə hörmət əsasında əldə olunması" fikri də yer alıb. Artıq Qranada bəyanatında Qarabağdan çıxmış "erməni sakinləri BMT missiyasının nəzarəti altında qeyd-şərtsiz geri qayıtmalıdır" kimi tezislər yoxdur. Düşünürük ki, əgər Azərbaycan görsə ki, Brüssel formatı onun maraqları ilə üst-üstə düşmür, ondan imtina edəcək.

**XQ**

# Regional məsələləri bölgə ölkələri özləri həll etməlidirlər

## "3+3" regionda kövrək sülhü qoruyub saxlamaqda ümidverici platformadır

**Son vaxtlar regional təşəbbüsləri sanki boykot yolunu tutmuş Ermənistan rəhbərliyi, deyəsən, daşı ətəyindən tökmək istəyir. Ölkənin xarici işlər naziri Ararat Mirzoyanın dünən Tehranda "3+3" (Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya və İran) formatında keçirilən görüşə qatılması belə deməyə əsas verir.**



Qeyd edək ki, region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatının təşəbbüskarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Həmin təşəbbüs Vətən müharibəsinin başa çatmasından az sonra irəli sürülüb. Azərbaycan regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyi fikrini rəhbər tutur.

Ötən illərin təcrübəsi göstərir ki, qarşıya çıxan problemlərin aradan qaldırılmasının, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin edilməsinin ən optimal yolu üçüncü tərəflərin iştirakı olmadan məhz region ölkələrinin özləri arasında aparılan müzakirələrdən keçir. Biz bunun bariz nümunəsini Vətən müharibəsində gördük. Müharibənin ilk günlərindən başlayaraq bir sıra ölkələr və beynəlxalq təşkilatlar hərbi əməliyyatların dayandırılması istiqamətində çağırışlar səsləndirsələr də, etiraf etmək lazımdır ki, qan tökülməsi Rusiyanın aktiv vasitəçilik səyləri nəticəsində dayandırıldı.

Hamının yaxşı xatirindədir ki, Prezident İlham Əliyev ilk günlərdən xarici mediaya verdiyi müsahibələrdə, dövlət başçıları ilə telefon danışıqlarında Ermənistanın işğal olunmuş rayonlardan çıxmasına dair öhdəlik götürəcəyi, konkret vaxt cədvəli verəcəyi təqdirdə, əməliyyatların başa çatdırılacağını bəyan edirdi. Ermənistanın baş naziri Nikol Paşinyan isə regiondan kənarda yerləşən ölkələrdən, əsasən Fransadan, ABŞ-dan və Kanadadan məded umurdu. Nəticə göz önündədir: Nikolun özünə arxa-dayaq saydığı uzaqda yerləşən dövlətlər heç bir real addım ata bilmədilər. Rusiya tərəfi isə 2020-ci il noyabrın əvvəllərindən intensivləşən telefon danışıqları ayın 9-dan 10-na keçən gecə məlum üçtərəfli bəyanatın imzalanması ilə nəticələndi. Bununla da hərbi əməliyyatlar dayandırıldı. Ermənistanla Azərbaycan arasında uzun illər davam etmiş qanlı müharibəyə son qoyuldu.

Müharibədən sonra Azərbaycan və Ermənistan liderləri arasında ilk görüş də 2021-ci il yanvarın 11-də Rusiyanın təşəbbüsü ilə Moskvada keçirildi. Görüşün sonunda regionda nəqliyyat kommunikasiyalarının açılmasına dair bəyanat imzalandı.

Ancaq Vətən müharibəsində Qərbdəki havadarlarından əməli dəstək ala bilməmək haylara dərs olmadı. Onlar "dəmir yumruğ"un zərbəsinin təsirindən ayılan kimi, yenə üzlərini Avropaya və okeanın o tayına çevirməyə başladılar. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin yeni vasitəçilik təşəbbüsü meydana çıxdı. Azərbaycan regiona sülhün gəlməsi naminə 2022-ci il mayın 22-də başlayan və "Brüssel formatı" adlanan görüşlərə də "yox" demədi. Lakin sonradan İrəvan bu təşəbbüsə də əngəl törətməyə başladı. Həmin ilin oktyabrında Praqada keçirilən üçtərəfli görüşə İrəvanın istəyi ilə Fransa da cəlb olundu. Parisin iştirakı ilə keçirilən görüşlər, aparılan danışıqlar isə sülhə xidmət etmədi.

Fransanın özünü tərəf qismində daxil etdiyi Praqa görüşünə ən dəqiq qiyməti 2023-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev vermişdi: "Detallara gəldikdə, deyə bilərəm ki, bu, qeyri-adi bir görüş idi. Çünki həddindən çox çəkdi və iki raunddan ibarət idi. Birinci görüş təxminən bir saat çəkdi və biz gördük ki, razılığa gəlü bilmirik. Ona görə danışdıq ki, axşam yeməyindən, ziyafətdən sonra bir daha yığışacağıq. Bir daha yığışdıq və o görüş təxminən dörd saatdan çox çəkdi. Görüş bitəndə Bakı vaxtilə səhər saat 5 idi. Bu, bir detal, maraqlı ola bilər.

İkinci maraqlı detal ondan ibarət idi ki, bir an mən özüm-özümə dedim ki, sanki burada Ermənistan–Fransa komandası bir tərəfdədir, biz isə başqa tərəfdəyik, Şarl Mişel isə hakimdir. Çünki Ermənistan tərəfi üçün çətin olan anlarda Ermənistan nümayəndə heyətinin üzvləri Fransa nümayəndə heyətinin üzvləri ilə kənara çəkilib pıçıltı ilə, necə deyərlər, cükküldəşirdilər, danışırdılar, müzakirə edirdilər. Yəni, bu, açıq-aşkar görünürdü. Çünki bir neçə saat bir balaca otaqda olmaq, əlbəttə ki, bu detalları görmək üçün bir imkandır. Yəni, emosiyaları gizlətmək bəzən çətin olur".

Praqa görüşündə Avropa İttifaqının mülki müşahidə missiyasının iki ay müddətinə Ermənistan–Azərbaycan sərhədinə yerləşdirilməsi ilə bağlı razılıq əldə olundu. Ancaq iki ay bitdikdən sonra Aİ Azərbaycanın razılığını almadan İrəvanın müraciəti əsasında, birtərəfli qaydada missiyanın müddətini uzatdı. Həmin addım hayların regionun məsələlərini kənar oyunçular hesabına həll etmək istəyinin daha bir göstəricisi oldu.

Nəhayət, bütün bu təxribatçı addımlar Azərbaycanın oktyabrın 5-də Avropa Siyasi Birliyinin İspaniyanın Qranada şəhərində keçirilən III Sammitində iştirakdan imtina etməsinə gətirib çıxardı. Qranadada keçirilməsi nəzərdə tutulan görüşdə Türkiyə Prezidentinin iştirakına imkan yaradılmaması ölkəmizi belə bir addım atmağa vadar etdi. Ermənistan rəhbərliyi isə oktyabrın 13-də Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasına qatılmadı. Həmçinin, hayların xarici işlər naziri Ararat Mirzoyan da MDB Xarici İşlər Nazirləri Şurasının görüşünə qatılmadı.

İndi isə hayların baş diplomatının Tehran görüşünə qatılması hər bir halda müsbət addım kimi qiymətləndirilmlidir.

Onu da qeyd edək ki, bu, "3+3" formatında nazirlər səviyyəsində keçirilən ilk görüşdür. Belə ki, 2021-ci il dekabrın 10-da bu formatda Moskvada keçirilən görüşdə xarici işlər nazirlərinin müavinləri iştirak etmişdilər.

"Cənubi Qafqazda sülh, əməkdaşlıq və tərəqqi" adı altında dünən Tehranda keçirilən iclasda Gürcüstan istisna olmaqla 5 region ölkəsinin xarici işlər naziri – Ceyhun Bayramov, Hakan Fidan, Sergey Lavrov, Ararat Mirzoyan və Hüseyn Əmir Abdullahian iştirak edibler. Görüşdə siyasi, iqtisadi, nəqliyyat, energetika, təhlükəsizlik sahələrində regional əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan–Ermənistan, Gürcüstan–Rusiya münasibətləri, habelə Yaxın Şərqdəki gərginlik fonunda Tehranda aparılan müzakirələr regionda kövrək sülhü qoruyub saxlamaq yolunda vacib addım kimi qiymətləndirilmlidir. Elə İranın baş diplomatı da görüşdən əvvəl iclasın Cənubi Qafqazda sülh və problemlərin aradan qaldırılması yolunda baza rolunu oynaya biləcəyini diqqətə çatdırıb.

***

Məlum əməkdaşlıq platformasının bütün iştirakçılar arasında dinc birgəyaşayışın əldə olunması, qarşılıqlı münasibətlərin yaradılması və regionun inkişafı üçün nə dərəcədə perspektivli olub-olmadığına dair fikirlərini "Xalq qəzeti" ilə bölüşən siyasi şərhçi **Rizvan Hüseynov** bildirib ki, "3+3" əməkdaşlıq platforması çox uğurlu formatdır. Onun



sözlərinə görə, hələlik yalnız Gürcüstan bu formata qatılmağa tərəddüd edir ki, bu da gürcülərin Rusiya rəsmiləri ilə eyni masada oturmaq istəmədiyindən irəli gəlir: "Bizə başqa yerlərdə Tiflis və Moskva nümayəndə heyətlərinin danışıqlar apardığının şahidi oluruq. Burada əsas səbəb Gürcüstan hakimiyyətində iktidarlı̇liyin mövcudluğudur. Baş nazir İrakli Qaribaşvili regional inkişafa, Azərbaycan və Türkiyənin mövqeyini dəstəkləməyə meyillidir. Biz onun bölgədə təhlükəsizliyin ancaq birlikdə təmin edilə biləcəyini anladığını görürük. Bu mənada ümid edək ki, "3+3" platforması özünü doğrultduqca, Gürcüstan da ona qoşulacaq".

R.Hüseynov qeyd edib ki, Qərb Cənubi Qafqaz ölkələrinin Türkiyə, İran və Rusiya ilə birlikdə hansısa platforma quraraq regional məsələləri həmin çərçivədə həll etməsini istəmir: "Çünki bu format çərçivəsində regionda nəqliyyat kommunikasiyalarının, eyni zamanda, Zəngəzur dəhlizinin açılması məsələsinin müzakirəsi və həlli, təhlükəsizliyin təmin olunması Qərbin bölgəmizə təzyiq vasitələrini itirməsi ilə nəticələnə bilər".

Siyasi şərhçi bildirib ki, bütün hallarda Cənubi Qafqaz ölkələrinin qonşularla birlikdə məsələləri müzakirə etmək qabiliyyətinin qorunub saxlanması və inkişaf etdirilməsində maraqlı olması özü böyük uğurdur: "Yəqin ki, qarşıdakı dövrdə Gürcüstan da "3+3" formatına qatılacaq. Çünki bölgədə sülh və sabitlik içində birgəyaşayış üçün bundan əlverişli variant yoxdur".

Rusiya Dövlət Humanitar Universitetinin Müasir Şərq və Afrika kafedrasının dosenti, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi **Lana Ravandi-Fədai** isə hesab edir ki, hazırda nikbinlik və "3+3" formatında regional əməkdaşlığın dirçəlişi üçün əsas var. O, Caliber.Az-a bildirib ki, Azərbaycan sentyabr ayında ölkənin bütün ərazisi üzərində suverenliyini bərpa edib, bununla da Cənubi Qafqazda ən mühüm məsələlərdən biri həll olundu: "Bundan əlavə, son illər Rusiya–Türkiyə və Türkiyə–İran münasibətləri xeyli yaxşılaşıb. Son həftələrdə İran–Azərbaycan münasibətlərində də gərginliyin azalması müşahidə olunur. Ağır məğlubiyyətə uğrayan Ermənistan daha barışdırıcı mövqe tutub və qonşuları ilə əməkdaşlığa hazır olub".

Gürcüstanın mövqeyinə gəlincə, rusiyalı ekspert qeyd edib ki, hakim "Gürcü arzusu" Partiyasının Rusiyaya münasibəti Qərbyönlü prezident Salome Zurabişvilidən daha yaxşıdır: "Ona görə də nəzəri cəhətdən Gürcüstanın bu formatla bağlı mövqeyini yumşaltmaq olar. İkincisi, 2021-ci il dekabrın 10-da Moskvada



keçirilən "3+3" formatının ilk görüşü Gürcüstan nümayəndəsinin iştirakı olmadan baş tutub. Ona görə də Gürcüstanın boykot edəcəyi halda belə, qalan iştirakçılar razılaşarsa, bu formatda növbəti görüşlər yenə də uğurla keçiriləcək. Mənim fikrimcə, indiki şəraitdə buna tam ümid etmək olar".

Lana Ravandi-Fədai qeyd edib ki, Cənubi Qafqaz dövlətləri arasında formatın reallaşdırılmasında ən çox Azərbaycan maraqlıdır. Belə ki, Azərbaycan Türkiyəyə, oradan da Avropaya çıxmaq üçün avtomobil və dəmir yolunun çəkilməsini, eləcə də digər infrastruktur layihələrinin həyata keçirilməsini istəyir.

Ekspertin fikirlərinə onu əlavə etmək qalır ki, həmin layihələr həm də region ölkələri arasında ticarət və iqtisadi baxımdan qarşılıqlı əlaqələrin sürətlə artmasına töhfə verəcək. Bu marşrutların bir çoxu Ermənistan ərazisindən keçəcəyi üçün İrəvan malların tranzitindən və xidmətdən böyük iqtisadi səmərə əldə edəcək. Görünür, Paşinyan hökuməti bunu anladığı üçün Tehranda keçirilən görüşə qatılmağa qərar verib.

***Səxavət HƏMİD***
**XQ**

# Ələtdən dünyaya açılan dəniz qapısı

## Azad İqtisadi Zona Şərq–Qərb, Şimal–Cənub dəhlizlərini qovuşdurur

**Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimi 2021- ci il iyulun 1-də keçirilib. Həmin vaxtdan indiyədək bu mühüm infrastrukturun qurulması ilə bağlı genişmiqyaslı layihələr reallaşdırılması istiqamətində zəruri addımlar atılıb. Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etmək olub. İnnovativ texnologiyalar əsasında xidmətlər göstərən investorları cəlb etmək, bu yöndə səmərəli fəaliyyətə üstünlüyü diqqətdə saxlayan beynəlxalq qurumların Azərbaycan şirkətləri ilə birgə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflər sırasında yer alıb.**



Qeyd edək ki, dövlət başçısının rəhbərliyi ilə son illərdə respublikamızda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyaların cəlb edilməsi, biznes və sərmayə mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr gerçəkləşdirilib. Dünyada özünü qabarıq büruzə verən ciddi iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam etdirilib. Ələt Azad İqtisadi Zonasının yaradılması da bunun bariz nümunəsi kimi diqqət mərkəzində olub.

Bu layihənin icrası respublikamıza böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirib, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm yer tutan Azərbaycanın strateji əhəmiyyətini daha da artırıb. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradıb.

Ələt Azad İqtisadi Zonasının önəmi barədə bəhs edərkən, ilk növbədə, deyə bilərik ki, belə bir infrastrukturun qurulması ideyasının təməlində Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı ilə əlaqədar mühüm önəm daşıyan strategiyası dayanır. Xatırladaq ki, sözügedən strategiya Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda inkişafın sürətləndirilməsi məqsədi daşıyır. Eyni zamanda, burada yaradılacaq infrastrukturun qurulması məqsədilə ölkəmizə müasir texnologiyaların gətirilməsini, yeni iş yerlərinin açılmasını və rəqabətqabiliyyətli məhsul istehsal olunmasını, nəhayət, qeyri-neft sənayesində ixrac imkanlarının genişləndirilməsini şərtləndirir.

Yeri gəlmişkən, Azad İqtisadi Zonanın Ələt qəsəbəsi yaxınlığında yerləşdirilməsi də təsadüfi deyil. Çünki bu ərazidə böyük boş torpaq sahələri var və həmin sahələr kənd təsərrüfatı üçün yararsızdır. Digər tərəfdən, qəsəbə paytaxta yaxındır. Bu da vacib şərtlərdən biridir. Bir sözlə, ərazidə infrastruktur layihələrinin icrası üçün bütün ilkin şərtlər var. Bundan başqa, Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və ərazidə Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Nəhayət, ən başlıcası isə buradan beynəlxalq dəhlizlər–Şərq-Qərb, Şimal-Cənub dəhlizləri keçir. Ona görə də logistika-nəqliyyat baxımından da bu sahə əlverişlidir.

Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə dövlətlərdə azad iqtisadi zonalar yaratmaq daha çətindir. Lakin əlverişli coğrafi vəziyyəti olan ölkələrdə azad iqtisadi zonalar daha çox fayda gətirir və ilk növbədə, coğrafi yerləşməyə görə belə infrastrukturlar mühüm önəm daşıyır. Buna görə də Azərbaycanda azad iqtisadi zona yaradılması təşəbbüsü irəli sürüldüyü vaxtdan indiyədək investorlar üçün daha da cəlbedici şərtlərin təqdim edilməsi, ilk növbədə, bu sahədə qanunvericiliyin formalaşması diqqətdə saxlanılır. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olarsa, bu, onları zonaya cəlb etməkdə çətinliklər yaradır. Beləliklə, respublikamızda qanunvericilik sahəsində görülən işlər həm investorların, həm də dövlətimizin maraqlarını tam təmin edir.

Hazırda Ələt Azad İqtisadi Zonasında şirkətlərin səmərəli fəaliyyəti üçün əlverişli şərtlər açıqlanıb, onların qarşısına müəyyən tələblər qoyulub. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov jurnalistlərə açıqlamasında bu barədə deyib: “Tələbimiz şirkətlərin ixrac üçün yüksək əlavə dəyərli məhsullar istehsal etməsidir. Eyni zamanda, istehsal məhsullarının 75 faizi xarici bazarlara çıxarılmalıdır. Ən əsas vəzifə isə təbii ki, məhsulların beynəlxalq standartlara cavab verməsinin təmin olunmasıdır”.

Burada onu da vurğulayaq ki, 2023-cü il iyunun 9-da Ələt Azad İqtisadi Zonasının birinci mərhələsi istifadəyə verilib. 850 hektar ərazini əhatə edən zonanın ilkin inkişaf mərhələsi çərçivəsində 60 hektar ərazidə (Zona-1) bir sıra işlər görülüb. İnvestorlara icarəyə veriləcək torpaq sahələri inşaat üçün hazır vəziyyətə gətirilib. Ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. Burada, həmçinin lazımi mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Zona-1 ərazisinin əsas girişində gömrük-keçid məntəqələri, eləcə də gömrük yoxlanışlarının aparılması üçün binalar inşa olunub. Ələt Azad İqtisadi Zonasının ərazisində ümumi sahəsi 16 min kvadratmetr olan Biznes Mərkəzi də yaradılıb.

Növbəti mərhələ çərçivəsində 138 hektar sahəni əhatə edən standart istehsal müəssisələri və logistika mərkəzləri, eləcə də 211 hektar ərazidə ağır sənaye müəssisələri üçün nəzərdə tutulmuş hissələrdə layihələndirmə işləri davam etdirilir. Yaxın vaxtlarda isə 138 hektar sahədə torpaq işlərinə başlanılması planlaşdırılır.

Xatırladaq ki, sözügedən iqtisadi zonada investorlar üçün aşağıdakı fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir:

–investorlar əlavə dəyər və mənfəət vergilərindən, ödəmə mənbəyində vergidən, eləcə də hər hansı digər korporativ vergidən azaddırlar;

–zonada idxal və ixrac zamanı gömrük rüsumları və vergilər tətbiq olunmur;

–aylıq əməkhaqqı 8 min manata qədər olan işçilər üçün gəlir vergisi tətbiq edilmir;

–yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır;

–əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur;

–xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur.

İqtisadi zonada bütün bunlardan savayı, valyuta əməliyyatlarına və ya mənfəətin repatriasiyasına heç bir məhdudiyyət qoyulmur. İnvestorların əmlakı heç bir halda milliləşdirilmir və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakının bu və ya digər məhdudiyyətlərdən qorunmasına, nəhayət, investorların əqli mülkiyyət hüquqlarının tam təhlükəsizliyinə təminat verir.

Beləliklə, Ələt Azad İqtisadi Zonasının səmərəli fəaliyyəti Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirir, Şərq–Qərb, Şimal–Cənub və Transxəzər (Orta Dəhliz) beynəlxalq nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artırır. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə əlverişli şərait yaradır. Eyni zamanda, belə bir önəmli layihənin icrası nəticəsində ölkəmizin milli iqtisadiyyatının dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənir.

***Vaqif BAYRAMOV***
***XQ***

## “Abşeron”dan 453 milyon kubmetr qaz çıxarılıb

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Abşeron” qaz-kondensat yatağı istismara veriləndən indiyədək 453 milyon kubmetr qaz hasil edilib.**



Energetika Nazirliyinin bununla bağlı yaydığı məlumatda yataqdan, həmçinin indəyədək 171 min ton qaz kondensatı çıxarıldığı da bildirilib.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən, cari il iyul ayının əvvəlində hasiltına başlanılan “Abşeron” qaz-kondensat yatağı JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) şirkəti tərəfindən idarə olunur. Yataqda illik hasilatı 1,5 milyard kubmetrdən 6 milyard kubmetrədək artırmaq planlaşdırılır.

Xatırladaq ki, cari ilin avqustunda SOCAR, “TotalEnergies” və ADNOC şirkətləri arasında “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair saziş imzalanıb. Satınalma tamamlandıqdan sonra ADNOC şirkətinin “Abşeron” qaz-kondensat yatağında 30 faiz iştirak payı əldə edəcəyi nəzərdə tutulub. SOCAR və “TotalEnergies” şirkətlərinin hər birinin iştirak paylarının isə müvafiq olaraq 35 faiz olacağı qərara alınıb.

## Avropa 29 milyard kubmetr Azərbaycan qazı alıb

**Energetika Nazirliyinin məlumatına görə, Trans-Anadolu (TANAP) və Trans-Adriatik kəmərləri (TAP) ilə bu infrastrukturlar istifadəyə veriləndən indiyə kimi Türkiyəyə 24,3 milyard kubmetr, Avropaya isə 28,7 milyard kubmetr Azərbaycan qazı nəql olunub.**



2023-cü il ölkədə qaz hasilatı 48,7 milyard kubmetr, ixrac isə 24 milyard kubmetr səviyyəsində proqnozlaşdırılıb.

Məlumatda bildirilir ki, əgər 2021-ci ildə Avropaya 8,2 milyard kubmetr qaz nəql edilmişdisə, enerji təchizatında turbulentliklərin yaşandığı ötən il isə qaz tədarükü 40 faiz artımla mümkün ən yüksək səviyyəyə–11,4 milyard kubmetrə çatdırılıb.

Hazırda Avropanın 10-dan çox ölkəsinin Azərbaycan qazına olan ümumi tələbatı illik 30 milyard kubmetrdən çoxdur.

## İlin əvvəlindən 937 milyon manat sığorta haqqı toplanılıb

**Azərbaycan Mərkəzi Bankından aldığımız məlumatda bildirilir ki, yanvar-sentyabr aylarında respublikada fəaliyyət göstərən 20 sığorta şirkətinin xətti ilə 9 milyard 38 milyon manat sığorta haqqı toplanılıb.**




Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 400 milyon manat olub.

9 ayda sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 42,7 manatı ödəniş edilib.

***XQ***

# Qarabağın enerji konsepti

## “Yaşıl mənbə”, üstəgəl, qənaətcil texnologiya

**Bakıda keçirilən “Xəzər İnşaat Həftəsi”ndə energetika nazirinin müavini Elnur Soltanov “yaşıl enerji” layihələrinin ölkə Prezidentinin imzaladığı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində hazırlanan 5 illik Tədbirlər Planı əsasında həyata keçirildiyini bildirib.**



Nazir müavini, həmçinin bu istiqamətdə BP və digər şirkətlərlə birgə fəaliyyətin uğurla davam etdirildiyini, Azərbaycanı “yaşıl enerji” zonasına çevirmək öhdəliyinin yüksək səviyyədə həyata keçirildiyini və Qarabağın “yaşıl enerji” potensialının zənginliyini diqqətə çatdırıb. Elnur Soltanov, eyni zamanda, Qarabağda bu istiqamətdə gerçəkləşdiriləcək tədbirlər planının Yaponiyanın “Tepsko” şirkəti ilə birgə hazırlandığını da vurğulayıb.

“Xəzər İnşaat Həftəsi”ndə Qarabağda icra edilən enerji layihələri ilə bağlı söhbət açılarkən bir neçə məqama da toxunulub. Bildirilib ki, işğaldan azad edilən ərazilərdə ilk 110 kilovoltluq yarımstansiyalardan biri Şuşada tikilərək istismara verilib. Xankəndi də artıq məhz həmin stansiyadan qidalanmağa başlayıb.

Qeyd edək ki, Qarabağda “yaşıl enerji” zonası planı hazırlanarkən təbii qazdan minimum istifadə konsepti üzərində işlənilib. Yekunda tamamilə qazsız versiyaya üstünlük verilib. Lakin müəyyən obyektiv səbəblərə görə, məhdud ölçüdə mavi yanacaqdan da istifadə nəzərdə tutulub. Amma Şuşanın ayrılıqda qazsız olmasına son anda qərar verilib və ilk mərkəzi isitmə sistemləri də orada qurulub.

Mütəxəssislərin bildirdiyinə görə, hazırda paylama şəbəkələri elektirk enerjisində ən çox itki olan sahədir. Belə bir amil nəzərə alınaraq Azərbaycanda ilk dəfə Şuşa şəhərində dünyada ən səmərəli paylama sistemlərindən sayılan 35 kilovoltluq gərginlikdən birbaşa 4-ə enən sistem qurulub.

Şuşada istilik mühafizə qaydalarına ciddi əməl olunur. Belə ki, yaşayış binalarında izolyasiyanın enerji itkilərində 50 faiz paya malik olması əhəmiyyətli məqam kimi diqqətdə saxlanılır. Bununla yanaşı, led işıqlardan istifadəyə daha çox üstünlük verilir. Binalaırn üzərində isə günəş panellərin qurulması həyata keçirilir. Bir sözlə, Şuşa ilə bağlı hazırlanan tədbirlər planında öz ifadəsini tapan bu məsələlərə hazırda xüsusi diqqət yetirilir. Amma şəhər ərazisinin kiçik olması bəzi planların digər yaşayış sahələrində reallaşdırılması ilə nəticələnir.

Azad edilmiş ərazilərdə “yaşıl enerji”-nin realllaşdırılmasından söhbət açarkən xatırladaq ki, düşməndən təmizlənən bölgələrin enerji ilə təminatı məqsədilə qısa müddətdə 1157 kilometrdən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, 20 yarımstansiya, eləcə də ümumi gücü 75 MVt olan 13 stansiyanın bərpası yekunlaşdırılaraq istifadəyə verilib.

Hazırda isə 119 MVt gücündə 13 stansiyada tikinti işləri aparılır. Həmçinin Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları inşa olunub, 140 MVt gücündə su elektrik stansiyalarının tikilib istismara verilməsi üçün işlər davam etdirilir.

Məlum olduğu kimi, “yaşıl enerji” zonasının yaradılması ilə bağlı 2022-2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpa olunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti təşviq edir. Bu çərçivədə azad olunmuş ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox binada günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampa ilə təchiz olunub və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Bütün bunlar davamlı proseslərdir və bütün səylər bu innovativ təcrübənin geniş tətbiqinə, azad edilən əraziləri enerji səmərəliliyində nümunəvi bölgəyə çevirməyə səfərbər olunub.

***XQ***

## Qaz kondensatı hasilatı 1,46 faiz çoxalıb



**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin ötən 9 ayında ölkədə 3 milyon 743 min ton qaz kondensatı hasil edilib. Keçən il isə bu göstərici 3 milyon 690 min ton olub. Beləliklə, illik müqayisədə qaz kondensatı istehsalı 1,46 faiz çoxalıb.**

Məlumata əsasən, hesabat dövründə respublikada istehsal edilən qaz kondensatının 3 milyon 722 min tonu əmtəəlik məhsul kimi reallaşdırılıb. 2022-ci ilin yanvar-sentyabr aylarında isə həmin göstərici 3 milyon 665 min ton səviyyəsində olub.

***XQ***

İkili standarta cavab

# Erməniplərəst dairələr hansı etnik təmizləmədən danışırlar?

## Yaxşı olar ki, onlar soydaşlarımızın Qərbi Azərbaycandan qovulmasını yada salsınlar

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan bayrağı artıq Xankəndidə, Qarabağımızın 30 il nəzarətimizdən çıxmış bütün guşələrində dalğalanır. Bu tarixi hadisə–əzəli-əbədi yurdumuza qovuşmağımız xalqımıza əbədi xoşbəxtliyin qapısını açıb.



Bu məqamda Qarabağın başı üzərini qara buludlar aldığı 1980-ci illəri xatırlamaq olmur. O vaxt erməni separatizmi yenicə baş qaldırmışdı. Bakıda, rayonlarda hər gün meydanlara minlərlə insan toplaşır, Xankəndidə, İrəvanda "miatsum" şüarı səsləndirənlərə etirazlar bildirilirdi. Şuşanın Topxana meşəsində ağac kəsimi isə xalqın sinirinə toxunub "Qarabağ bizimdir" hayqırtısı ilə qarşılanırdı. Bütün bunlar ermənilərin havadarlarının qara niyyətlərini tormozladı. Erməni millətçilərinin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlayan bu münaqişə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələndi. Bu qəsbkarlıq 30 il çəkdi. İşğal dövründə Qarabağ başdan-başa xarabalığa çevrildi. Prezident İlham Əliyevin vurğuladığı kimi, ordumuzun şücaəti ilə torpaqlarımız faşizmin caynağından xilas ediləndən sonra orada bayrağımızın sancılması üçün salamat bir bina belə tapılmadı.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun hər kənd, hər şəhərində dövlət bayrağımız dalğalanır. Azərbaycanın bu əzəli-əbədi torpağımızda suverenliyini tam bərpa etməsi hamımızı sevindirir, qürurlandırır, qəlbimiz iki əsrlik problemi həll edən Prezident, Ali Baş Komandan İlham Əliyevə, müzəffər ordumuza minnətdarlıq hissi ilə döyünür.

Dövlətimizin başçısı bu zəfərin zirvəsi olaraq Xankəndi şəhərində üçrəngli, aylı-ulduzlu bayrağımızı dalğalandırdıqdan sonra çıxışında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tarixinə toxunaraq, keçmişdə ölkəmizdə ermənilərə qarşı heç bir ayrı-seçkilik, diskriminasiya olmadığını xatırlatdı: "Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyündən çıxarıldı. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı? Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb".

Dövlətimizin başçısı çıxışında ovaxtkı Azərbaycan rəhbərliyinin faktiki olaraq vəziyyətə nəzarət edə bilmədiyini, acizlik, qətiyyətsizlik göstərdiyini təəssüflə xatırlatdı. Cənab İlham Əliyev Xankəndinin erməni millətçilərinin, daşnakların, beynəlxalq terrorçuların toplaşdığı mərkəzi meydanında anti-Azərbaycan şüarı ilə mitinqlər keçirildiyini vurğuladı. Ölkə rəhbəri, eyni zamanda, o zaman cəmi 6 il Heydər Əliyevsiz qalan Azərbaycanda böhran yaşandığını, torpaqlarımızın işğal altına düşdüyünü, bir-birini dəyişən zavallı rəhbərlərin isə faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışdıqlarını, xüsusilə AXC–Müsavat antimilli cütlüyünün bu taleyüklü məsələdə xəyanətkar və satqın fəaliyyət göstərdiyini bir daha diqqətə çatdırdı.

İstər Ümummilli lider Heydər Əliyev yenidən müstəqil Azərbaycan rəhbərliyində olduğu dövrdə, istərsə də Prezident İlham Əliyev 17 il ərzində münaqişəni sülh yolu ilə, qan tökmədən həll etmək məqsədilə Ermənistan tərəfinə çağırışlar edildi. Bu, qanlı mübarizəyə son qoyulması üçün bizim bir millət kimi sülhsevər, tolerant olmağımızla, multikultural dəyərləri daşımağımızla bağlı idi. Amma işğalçı ölkə xəyanətkar, haramxor erməni xislətinə uyğun olaraq 30 il ərzində daim yeni uydurmalar sərgiləyib konfliktin həllini, işğalın ömrünü uzatmağa çalışırdı. Prezident İlham Əliyev erməni faşizminin qəsbkar mövqeyindən geri çəkilmədiyini, min bir bəhanə ilə sülh danışıqlarından yayındığını görüb məsələnin həllinin hərbi yolunun seçiləcəyi xəbərdarlığını edəndə işğalçı Bakıya tanklarla gələcəyini bəyan etməklə təcavüzkarlıqdan əl çəkmədiyini bir daha təsdiqlədi.

Bu məqamda onu da qeyd edim ki, 30 il ərzində Ermənistanda mötədil millətçi olan sabiq prezident Levon Ter Petrosyan Qarabağ caniləri Koçaryana və Sarkisyana dəfələrlə xəbərdarlıq etdi ki, Azərbaycan güclü ordu yaradır, əgər 7 rayonu qaytarmasanız sizin "qalib" mifinizi tamamilə dağıdacaq. Separatçılar isə öz bildiklərini etdilər. Qondarma "Artsax"a başçılıq etmiş 3 separatçı isə bu gün DTX-nın təcridxanasında oturub Sarkisyan və Koçaryanın yolunu gözləyirlər...

Azərbaycan bütün beynəlxalq normalara, şərtlərə əməl edib öz torpağını mənfur düşməndən azad etdi. Azərbaycan Ordusu bu haqq işində mərdlik, şücaət göstərdi. Ermənistanın isə bu müharibəyə zorla cəlb etdiyi gənclərdən ibarət böyük bir fərari ordusu yarandı. Erməni zabitlər əsgərləri qaçmasınlar deyə onları zəncirlə səngərə bağladılar… Bütün bunlar gəlmə ermənilərin Qarabağ "sevgisinin" gerçək nəticələri idi.

Azərbaycanın sentyabr ayının 19-da həyata keçirdiyi antiterror tədbirlərindən sonra Qarabağı öz xoşu ilə tərk edən erməniləri, guya, oradan zorla çıxartdığımızı bəhanə edib, ölkəmizi etnik təmizləmədə günahlandırmağa çalışan müəyyən qüvvələrin bütün cəhdləri bir-birinin ardınca fiaskoya uğrayır. Ermənilərin könüllü şəkildə gedişinə verilən ədalətli reaksiyalardan Baş nazir Nikol Paşinyan da əndişələnir. Onun uydurma etnik təmizləmə iddialarının dəstək qazanmamasından ciddi şəkildə narahat olduğu açıq-aşkar nəzərə çarpır. Bu, Paşinyan hakimiyyətinin Azərbaycana qarşı qurmağa çalışdığı yeni məkrli oyunların baş tutmayacağı anlamına gəlir.

Azərbaycan torpaqlarımızı öz xoşu ilə tərk edib gedən erməniləri, az qala, ləyaqətlə yola salıb. Amma ermənilər 1980-ci ilin sonlarından başlayaraq azərbaycanlıları Qərbi Azərbaycandan–indiki Ermənistan adlı dədə-baba torpaqlarımızdan və Qarabağdan ağla sığmayan vəhşiliklə, qışın soyuğunda ayaqyalın, başıaçıq qovublar. Belə şəraitdə nə qədər soydaşlarımız elə yollardaca həyatlarını itirib. Fransa başda olmaqla erməniplərəst dairələr indi bütün bunları unudaraq bizdən erməniləri geri qaytarmağı və onların təhlükəsizliyinə təminat verməyi tələb edir. Halbuki Azərbaycan bu məsələ ilə bağlı mövqeyini dəfələrlə bildirib və uzun illər Qarabağda yaşayan ermənilərə Azərbaycan vətəndaşlığı və reinteqrasiya təklif edib. Hətta ordumuz lokal antiterror tədbirləri zamanı bölgədə heç bir mülki obyektə və əhaliyə zərər vurmayıb. Yalnız Ermənistan ordusunun tör-töküntüləri, silahlı terror dəstələri tərksilah olunub, erməni azlığa isə, necə deyərlər, güldən ağır söz deyilməyib. Onlara respublikamızda qanunlarımız çərçivəsində yaşamaq çağırışı edilib. Azərbaycanın bu humanist fəaliyyəti bölgədə monitorinq aparan BMT müşahidə missiyası tərəfindən də yüksək dəyərləndirilib.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdim. Görəsən, bu gün işğalçı ölkə Azərbaycanı heç bir həqiqətə əsaslanmadan etnik təmizləmədə ittiham edirsə, bəs onda 1980-ci ilin sonlarında Qərbi Azərbaycandan qovulan 250 min azərbaycanlının öz ata-baba yurduna qaytarılması və onun təhlükəsizliyinə təminat verilməsi barədə niyə susmağa üstünlük verir. Axı illərdir ki, dədə-baba torpaqlarının həsrətini çəkən soydaşlarımız Qərbi Azərbaycana– İrəvana, Zəngəzura, Dərələyəzə, Göyçəyə, Amasiyaya və azərbaycanlıların vaxtilə kompakt yaşadıqları digər ərazilərə qayıtmaq istəyirlər.

Qeyd etdiyim kimi, Azərbaycanın mövqeyi aydın və qətidir, bütünlüklə haqq-ədalətə əsaslanır. Buna görə də heç kimdən asılı deyil və heç kimdən heç nə istəmir. Dövlətimizin başçısının vurğuladığı kimi, ona görə də bəzi böyük dövlətlər bizdən narazıdırlar. Çünki həmin dövlətlər kimlərinsə onların önündə baş əyməsinə öyrəşiblər. Buna görə də indi bəziləri, guya, beynəlxalq ictimaiyyətin Azərbaycanı antiterror tədbirləri apararkən heç kimlə məsləhət aparmamaqda qınadığını deyirlər. Kimdir beynəlxalq ictimayyət? Prezident İlham Əliyevin dediyi kimi, məgər beynəlxalq ictimaiyyət 20-30 dövlətdən ibarətdirmi? Dünyada 200-dən çox dövlətin olduğu bir halda bir ovuc ölkə hansı haqla bu qədər dövlətin adından danışmaq hüququnu mənimsəyib? Bu qalan dövlətlərə hörmətsizlik, beynəlxalq hüquqa sayğısızlıqdır.

Böyük güclər tarix boyu kiçik dövlətləri və azsaylı xalqları aşağılamaqla, onları əzib öz istəklərini reallaşdırmaqla məşğul olublar. Görünən budur ki, onlar bu gün də üzərlərinə dünyaya "demokratiya dərsləri" vermək kimi öhdəlik götürsələr də, vaxtilə xalqları əzib istismar etmək və tabeliklərində saxlamaq kimi mərəzdən qurtula bilməyiblər. Belə olmasaydı, onlar bu gün Azərbaycanın haqq işini bu qədər ayaqlar altına salmağa cəhd etməzdilər. Böyük güclərin vaxtilə yaratdığı BMT isə erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasına dair Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını 27 ildə bir dəfə də olsa yada salmadı.

Azərbaycan atdığı bütün haqlı addımlarda beynəlxalq hüququn heç bir tələbini pozmayıb. Bu səbəbdən Fransa və ermənilərə havadarlıq edən digər ölkələr bilməlidilər ki, dövlətimiz onların haqsız və ədalətsiz basqılarına məntiqlə və beynəlxalq hüququn tələb etdiyi qaydalar çərçivəsində cavab verir. Bəli, haqq bizimlədir, deməli, güclü olan da bizik. Güclünü yenmək isə mümkün olmur…

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru,***
***professor***

# "Der Standard" qəzetinin yalana əsaslanan böhtançı çıxışı

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) Avstriyanın "Der Standard" qəzetinin 21 oktyabr nömrəsində dərc olunmuş saxta xəbər (feyk nyus) əsaslı material barədə açıqlama yayıb.**

MEDİA-dan XQ-ya verilən açıqlamada bildirilib: "Avstriyanın "Der Standard" qəzeti 2023-cü il 21 oktyabr il tarixli nömrəsində "Dağlıq Qarabağda etnik təmizləmə təhlükəsi" başlıqlı reportaj yayımlanıb. Materialın müəllifi, telejurnalist Jo Angerer heç bir araşdırma aparmadan müxtəlif detalları fakt kimi təqdim edərək bu il sentyabrın 19-da Azərbaycanın öz ərazisində beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək apardığı lokal antiterror tədbirləri barədə yanlış təəssürat yaratmışdır. Jurnalist auditoriyanı yönləndirmək məqsədilə xəbərin miqyası və məzmunundan daha çox onun şərh hissəsini manipulyasiya predmetinə çevirmiş, qarşı tərəfin rəyini nəzərə almayaraq jurnalistikanın balans prinsipini pozmuş, bölgədəki mövcud vəziyyəti obyektiv ifadə etməyən birtərəfli material hazırlamışdır.

Azərbaycan Respublikasının müvafiq rəsmi hakimiyyət orqanları hansı media subyektində çalışmasından və hansı ölkəni təmsil etməsindən asılı olmayaraq bütün jurnalistlərin informasiya əldə etmək hüququna hörmətlə yanaşır və jurnalist sorğularının operativ cavablandırılmasına hər zaman hazırdır. Vurğulamaq istərdik ki, nə "Der Standard" qəzeti, nə də Jo Angerer lokal antiterror tədbiri ilə bağlı Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarına heç bir müraciət etməmişdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi olaraq "Der Standard" qəzetində şəxsi, subyektiv siyasi mülahizələr əsas götürülərək reallıqları təhrif edən, media etikası və jurnalistin peşəkarlığı prinsipləri ilə bir araya sığmayan materiala yer verilməsinin təəssüf hissi doğurduğunu bildirir, eyni zamanda, sözügedən qəzeti Azərbaycan Respublikasının rəsmi mövqeyini nəzərə alaraq regionumuzda mövcud siyasi reallıqlar barədə material hazırlamağa çağırırıq".

KÖŞƏ

# Dünya düzəlmir ki, düzəlmir, baba!

**Sülhə, dostluğa, tərəfdaşlığa və tərəqqiyə qənim kəsilmiş qüvvələrin dövriyyəyə buraxdığı siyasi maraqlar, iqtisadi iştahalar, diplomatik hoqqalar anamız Yer kürəsini daha bir dünya müharibəsinin beş-on addımlığına gətirib. Beynəlxalq aləmdəki sülhsevər xalqların və siyasətçilərin mütərəqqi addımları bizi asayiş və əmin-amanlığın astanasına çatdıranda üfüqdə görünən sülh göyərçininə də badalaq gələn tapılır. Adətən, badalaq idmançının və ya döyüşçünün ayaqlarına vurulur. İndi isə göyərçinin qanadları həmin qərəzli fəndin hədəfinə çevrilir.**

**Çünki,**

***Gedir yal davası, sümük davası,***
***Gedir vurhavurla çəpik davası,***
***Gedir milyonçunun qəpik davası,***
***Çürük fikirlərin çürük davası...***
***Dünya düzəlmir ki, düzəlmir, baba!***



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Anti-Azərbaycan və antitürk siyasi dairələrin iki əsrdən bəri davamlı olaraq körüklədiyi Qarabağ münaqişəsinin diplomatiyamızın və ordumuzun gücü ilə birdəfəlik həll olunmasına baxmayaraq, planetin müxtəlif yerlərindən bayquş səsləri eşidilir ki, Qarabağ münaqişəsinin həlli üçün filan addımlar atılmalıdır.

Bəzi faktları yada salaq. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan hələ sentyabrdakı lokal antiteror əməliyyatlardan xeyli əvvəl – bu il mayın 17-də bəyanat vermişdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır: "Üç gün əvvəl Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə biz irəliyə doğru addım atdıq və vurğuladıq ki, Ermənistan Azərbaycanın 86,6 min kvadratkilometr, Azərbaycan isə Ermənistanın 29,8 min kvadrat kilometr ərazisini tanıyır". Bu açıq bəyanatdan bir həftə keçməmiş Fransadan bir bayquş uladı ki, münaqişənin ədalətli həllinə nail olmaq üçün biz daim Ermənistanın yanındayıq. Yəni Makron Fransası Afrikadakı nüfuzunu itirdikcə daha da quduzlaşır və Cənubi Qafqazdakı sönməkdə olan münaqişəni var gücü ilə körükləməyə çalışır.

Yaxud, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə, Fransa başda olmaqla, bütün bədxahlarımıza konkret mesaj göndərdi: "Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik, bu mövzu bağlandı. Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir".

Ekspertlərin fikrincə, dövlət başçımız bu mesajı Avropa Şurası Parlament Assambleyasının 12 oktyabr 2023-cü il tarixli 2517 (2023) saylı qətnaməsinə və 2260 (2023) saylı tövsiyəsinə cavab olaraq səsləndirmişdi. Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin həmin bədnam sənədi qınayan bəyanatında deyilirdi ki, AŞPA Azərbaycan və Ermənistan arasında sülh səylərinin perspektivlərinə xələl gətirən və Azərbaycana qarşı əsassız və qərəzli addımları dayandırmalıdır. Eyni zamanda, Avropa Şurasının mexanizmlərindən Azərbaycana qarşı istifadəyə yönəlmiş uzaqgörən olmayan cəhdlər tamamilə əks nəticə verir. Bu kimi cəhdlər Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi və Azərbaycanın Qarabağ bölgəsində yerli erməni sakinlərlə bağlı reinteqrasiya planları istiqamətində fəaliyyətini davam etdirmək əzmini sarsıda bilməz.

Başqa bir fakt. Rusiya Prezidenti Vladimir Putin oktyabrın 13-də MDB Dövlət Başçıları Şurasının iclasının yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında demişdi ki, Qarabağ nəticə etibarı ilə indi deyil, ötən ilin oktyabrında Praqada görüşdə Ermənistan baş naziri Paşinyanın Qarabağla bağlı bəyanatından sonra yekun olaraq Azərbaycanın tərkib hissəsi oldu: " Hansı ki, həmin bəyanatla Qarabağın statusu köklü şəkildə dəyişdi. Yəni ki, Ermənistan Qarabağın statusunu müəyyən etdi. Ermənistan etiraf etdi ki, Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsidir".

Başqa bir faktı yada salaq. Macarıstan rəhbərliyi ötən ay Avropa İttifaqının Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri ilə bağlı hazırladığı anti-Azərbaycan bəyanatına veto qoyaraq, ədalətli mövqe irəli sürmək nümunəsi göstərmişdi. Belə ki, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi antiterror tədbirləri ilə bağlı hazırladığı bəyanatı Macarıstan tərəfindən rədd edilmişdi. Borrelin tərtib etdiyi bəyanatda Azərbaycan Qarabağ erməniləri ilə "şəffaf dialoq"a çağırılırdı.

Halbuki, İrəvan rəhbərliyi Qarabağda yaşayan ermənilərin (onların sayı erməni ordusunun əsgərləri də daxil olmaqla 30-40 mindən çox deyildi) "sürətlə artaraq" 100 mini ötdüyünü və hamısının da Laçın sərhəd-keçid məntəqəsi vasitəsiylə Ermənistana getdiyini dəfələrlə bəyan etmişdi. Onda biz kiminlə şəffaf dialoq aparmalıydıq?

Bir sözlə, dünya düzəlmir. Azərbaycan ərazilərinin 20 faizi otuz il işğal altında qaldı, qarət edildi, viranəyə çevrildi, dünya qətiyyən narahat olmadı. Biz öz hüquqlarımızı qoruyanda, ərazi bütövlüyümüzü bərpa edəndə isə dünyanın müxtəlif yerlərində qulaqlar şəkləndi, gözlər bərəldi, əsəblər tarıma çəkildi və... Azərbaycan karvanı ötüb keçdi.

Otuz il bizə deyirdilər ki, mövcud reallıqlarla barışın. İndi özləri mövcud reallıqlarla barışsınlar. Barışmasalar... özləri bilərlər.

# Qərbi Azərbaycana qayıdış konfransı



**Niderland Krallığı parlamentinin Nümayəndələr Palatasının (Tweede Kamer) Haaqada yerləşən "Nieuws poort" media mərkəzində Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) və Benilüks Azərbaycanlıları Konqresinin (BAK) birgə təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və icmanın Avropadakı üzvləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Sonra Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulmasını əks etdirən "Zəngəzur" sənədli filmi nümayiş olunub.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının rəhbəri Əziz Ələkbərli Qərbi Azərbaycan İcması və onun Qayıdış Konsepsiyası barədə danışıb. Ermənistandan azərbaycanlıların mərhələlərlə qovulmasından bəhs edən Ə. Ələkbərli soydaşlarımıza qarşı ermənilər tərəfindən törədilmiş fərdi və kollektiv cinayətlərə toxunub. O, Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı prinsipial mövqeyi, icmanın İnzibati binasını ziyarət etməsi, Qərbi Azərbaycan İcmasının üzvlərinin hüquqlarının bərpa olunmasına və onları doğma torpaqlarına qayıtmasına tam dəstəyini ifadə etməsi barədə məlumat verib. Deyib ki, Azərbaycan Prezidentinin dəstəyi icma üzvlərini bir daha ilhamlandırıb.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması sədrinin müavini Hikmət Məmmədov Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının siyasi-hüquqi əsaslarından söz açaraq, son iki əsrdə erməni dövlət orqanlarının azərbaycanlılara qarşı sistemli şəkildə apardığı etnik təmizləmə, zorla köçürülmə, zorakılıq, kütləvi qırğın və soyqırımı siyasətinin nəticəsində Ermənistanın ermənilərdən ibarət monoetnik dövlətə çevrildiyini deyib.

Tədbirdə Niderlanddakı Azərbaycan və türk icmalarının üzvləri ilə bərabər, Latviya, Litva, Pakistan, Polşa, Ukrayna, yəhudi icmalarının üzvləri, eləcə də yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

***XQ***

# Ceyhun Bayramov “3+3” formatının nazirlər görüşündə



***

Xarici işlər nazirlərinin “3+3” formatında növbəti görüşü 2024-cü ilin birinci yarısında Türkiyədə keçiriləcək.

Qeyd edək ki, dünən İranın paytaxtı Tehranda “3+3” formatında (Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya, Türkiyə) xarici işlər nazirlərinin görüşü keçirilib. İclasda Türkiyə, Rusiya, İran, Ermənistan xarici işlər nazirləri Hakan Fidan, Sergey Lavrov, Hüseyn Əmir Abdullahiyan və Ararat Mirzoyan iştirak edib.

**Oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Tehran şəhərində “3+3” regional məşvərət formatının nazirlər səviyyəsində keçirilən birinci görüşündə çıxış edib.**



Nazir çıxışında qeyd olunan formatın regional problemlərin region ölkələri tərəfindən həlli yollarını nəzərdən keçirmək məqsədilə yaradıldığını vurğulayıb.

Platformanın mövcud ikitərəfli və digər əməkdaşlıq formatlarını tamamlamaq, regionda təhlükəsizliyi və sabitliyi gücləndirmək, iqtisadi artım və tərəqqi naminə istifadə edilməmiş potensialı üzə çıxarmaq üçün əhəmiyyətli potensiala malik olduğunu bildirib.

Region ölkələrinin qarşılıqlı fəaliyyət və əməkdaşlığının təməl daşı kimi suverenliyə, ərazi bütövlüyünə və bir-birilərinin sərhədlərinin toxunulmazlığına hörmətin, daxili işlərə qarışmamağın vacibliyini vurğulayıb.

Nazir çıxışında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, Rusiya, Azərbaycan və İranın iştirakı ilə Şimal-Cənub dəhlizinin və Azərbaycan-İran-Türkiyə üçtərəfli formatının yalnız bir dövlətin xeyrinə deyil, hər kəsin ortaq mənfəəti olduğunu əyani şəkildə nümayiş etdirdiyini, bu layihələrin və formatların müsbət təsirinin region ölkələri ilə məhdudlaşmadığını və daha geniş coğrafiyada tərəfdaşlarımızı əhatə etdiyini diqqətə çatdırıb. Regional bağlantıların təşviqinin yalnız tranzit və nəqliyyat sahələrində deyil, enerji təhlükəsizliyi və energetika kimi sahələrdə istifadə olunmamış geniş potensialdan faydalanmaq üçün də vacib olduğunu qeyd edib. Region ölkələri arasında bağlantıların iqtisadi faydaları ilə yanaşı, müsbət qarşılıqlı asılılığa təkan vermək və beləliklə, sülh və sabitliyə töhfə vermək baxımından da eyni dərəcədə əhəmiyyətli olduğunu bildirib.

Nazir çıxışında Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında İran İslam Respublikasının ərazisindən keçməklə nəqliyyat əlaqələrinin yaradılması istiqamətində son inkişafların xüsusi əhəmiyyət kəsb etdiyini, infrastruktur layihələrinin tezliklə yekunlaşdırılması və bu marşrutun istismara verilməsinin regionumuzda bu iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığa xidmət edəcəyini, həmçinin Avrasiyada nəqliyyat və tranzit potensialının artırılması üçün yeni bağlantı arteriyasını yaradacağını vurğulayıb.

O, Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpasının Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün yeni perspektiv açdığını diqqətə çatdırıb. Nazir Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında normallaşmasının təkcə bu ölkələrin xeyrinə olmayacağını, həm də əməkdaşlıq və tərəqqi üçün istifadə edilməmiş potensialdan faydalanmağa imkan yaradacağını bildirib.

Nazir çıxışında Azərbaycanın Ermənistanla bir-birinin legitim maraqlarına qarşılıqlı hörmət əsasında ədalətli və bərabərhüquqlu sülh təklifini bir daha diqqətə çatdırıb və sülh müqaviləsi çərçivəsində məsələlərin tezliklə yekunlaşması məqsədilə Ermənistan tərəfindən qarşılıqlı addımlar və konstruktiv yanaşma gözlədiyimizi, tam regional normallaşma üçün bu unikal şansın bir daha əldən verilməyəcəyinə ümidvar olduğumuzu diqqətə çatdırıb.

Gürcüstan da “3+3” formatına daxil olsa da, Tehran görüşünə qatılmayıb.

***

Dünən xarici işlər naziri Ceyhun Bayramov Tehranda “3+3” formatında birinci nazirlər görüşündə iştirakı çərçivəsində İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb.

Görüşdə Azərbaycan və İran arasında ikitərəfli və çoxtərəfli formatlarda mövcud əməkdaşlıq imkanları, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin perspektivləri, habelə bölgədəki cari vəziyyət barədə fikir mübadiləsi aparılıb.

İki ölkə arasında son aylarda keçirilmiş görüşlər və ikitərəfli iqtisadi komissiya çərçivəsində təmaslar, bir sıra istiqamətlərdə artan əməkdaşlıq dinamikası məmnunluqla qeyd olunub, yüksək səviyyəli görüşlərin və qurumlararası təmasların daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə nazir Ceyhun Bayramov 24 saatlıq antiterror tədbirlərindən sonra Azərbaycanın öz əraziləri üzərində tam suverenliyi bərpa etdiyi, sülh gündəliyi üzrə atılan addımlar barədə qarşı tərəfi məlumatlandırıb. O, bölgədə sülh və təhlükəsizliyin bərqərar olunmasında, regiona davamlı sülhün gətirilməsində, habelə regional əməkdaşlığın təşviqində ölkəmizin qərarlılığını bir daha diqqətə çatdırıb.

XQ

---

Yeni nəşrlər

# İlham Əliyevin Gəncə səfərləri



**Gəncədə Prezident İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş “İlham Əliyevin Gəncə şəhərinə səfərləri” adlı kitabın təqdimatı keçirilib.**

Gəncə Dövlət Filarmoniyasında keçirilən təqdimat mərasimində Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, ziyalılar, icra hakimiyyəti aparatının məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra Ulu öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tədbirdə çıxış edərək deyib ki, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyev Gəncə və gəncəlilərə daim diqqət və qayğı ilə yanaşır. Gəncə şəhərində Prezident İlham Əliyevin sərəncamları əsasında böyük infrastruktur layihələr icra olunur ki, bunlar da şəhərimizin sosial-iqtisadi inkişafına və insanların yaşayış tərzinin yüksəldilməsinə köməklik göstərir. Niyazi Bayramov kitabın ərsəyə gəlməsində AMEA Gəncə Bölməsinə təşəkkürünü bildirib və uğurlar arzulayıb.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev çıxışında kitab haqqında tədbir iştirakçılarına geniş məlumat verib. O qeyd edib ki, “İlham Əliyevin Gəncə şəhərinə səfərləri” adlı kitabının yaranma səbəbi ölkə Prezidentinin 20 il ərzində Gəncə şəhərində sənaye, elm, təhsil, mədəniyyət, səhiyyə sahələrində, milli-mənəvi dəyərlərin bərpa olunması ilə bağlı verdiyi qərarlar, sərəncamlar və fərmanların hər birinin kitabda toplanaraq gələcək nəsillərə çatdırılmasıdır.

YAP şəhər təşkilatının sədri Bayram Aslanov bildirib ki, Azərbaycan xalqını bəlalardan xilas edən, bütün dünyaya öz gücünü, müdrikliyini bəyan edən və 44 günlük Zəfər qələbəsini tarixə qızıl hərflərlə yazan Prezidentimizin yanında olmaq hər birimiz üçün şərəfdir.

Sonda “İlham Əliyevin Gəncə şəhərinə səfərləri” adlı kitab tədbir iştirakçılarına təqdim olunub.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri,**
**Gəncə**

---

# Kamran Əliyev Ankarada işgüzar səfərdə



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirak etmək məqsədilə Ankara şəhərinə işgüzar səfərə gedib.**

TDT-yə üzv Dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında açılış nitqi ilə çıxış edən Türkiyə Ali Məhkəməsinin baş prokuroru Bekir Şahin, Ali Məhkəmənin sədri Mehmet Akarca, ədliyyə naziri Yılmaz Tunç, TDT-nin Baş katibi Kubaniçbek Ömüralıyev və Ağsaqqal Şurasının sədri Binəli Yıldırım iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Türk dövlətləri Təşkilatına üzv Dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib. TDT Baş Prokurorları Şurasının 2-ci toplantısının Türkiyənin qurulmasının 100 illiyi ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyəti qeyd edilib.

İclasın sonunda Ankara bəyanatı qəbul edilib, növbəti iclasın Qırğızıstanda keçirilməsi qərara alınıb.

Baş Prokurorluğun nümayəndə heyətinin Türkiyəyə işgüzar səfəri davam edir.

XQ

---

# ABŞ Cənubi Qafqazda istənilən xoşniyyətli səyləri alqışlayır




**ABŞ Cənubi Qafqazda sülhü təşviq edən istənilən xoşniyyətli səyləri alqışlayır.**

Bunu ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller dünən keçirdiyi brifinq zamanı deyib.

“Ermənistan–Azərbaycan məsələsinə gəlincə, biz bu danışıqların harada getməsindən və kimin aparmasından asılı olmayaraq, Cənubi Qafqaz xalqları üçün sülh və sabitliyə kömək edən istənilən xoş niyyətli səyi alqışlayırıq”, – deyə o bildirib.

Qeyd edək ki, dünən Tehranda "3+3" formatında XİN başçılarının görüşü keçirilib.

XQ

---

# Türkiyənin müdafiə naziri Azərbaycanda

**Türkiyənin milli müdafiə naziri Yaşar Gülər Azərbaycanda səfərdədir.**



Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, türkiyəli nazir Azərbaycanda həyata keçirilən “Mustafa Kamal Atatürk - 2023” birgə taktiki təlimini izləmək və ikitərəfli danışıqlar aparmaq üçün Bakıdadır.

Yaşar Güləri hava limanında Azərbaycanın Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev və Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı və digər hərbi nümayəndələr qarşılayıb.

XQ

---

# Azərbaycan–Türkiyə birgə təlimi

**Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad olunmuş ərazilər də daxil olmaqla ölkəmizin müxtəlif istiqamətlərində keçirilən “Mustafa Kamal Atatürk - 2023” birgə taktiki təlimi davam edir.**



Azərbaycan Ordusunun Quru Qoşunları, Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunları, Mühəndis Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr, eləcə də Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının və Türkiyə Silahlı Qüvvələrinin müvafiq qoşun növü mənsublarının iştirakı ilə keçirilən birgə təlimin növbəti mərhələsi icra edilib.

Plana uyğun olaraq şərti düşmən hədəflərinin dəqiq atəş zərbələri ilə məhv edilməsi, eləcə də əməliyyat rayonunun dərinliyindəki diversiya qrupunun zərərsizləşdirilməsi və girovların azad edilməsi üzrə tapşırıqlar uğurla yerinə yetirilib.

XQ

Beynəlxalq həyat

# Yaxın Şərq: müharibənin sonu görünmür...



(əvvəli 1-ci səhifədə)

Qərb dövlətlərinin liderləri bir-birinin ardınca münaqişə zonasına səfər edirlər, amma nə köhnə problemləri çözmək mümkün olur, nə də bölgədə baş alıb gedən şiddəti dayandırmaq. Bu səfərlər daha çox Yaxın Şərqin "siyasi podium"unda təmsil olunmaq cəhdindən başqa bir şey deyil və daxili auditoriyada xalq qazanmaq niyyəti güdür. Regionda faktiki olaraq humanitar fəlakət yaşanır. Bazar ertəsi səhər saatlarında Fələstin mediası Qəzza zolağında bir neçə xəstəxananın yaxınlığında partlayışlar baş verdiyini bildirib. Heç bir müstəqil mənbə itkilər barədə məlumatları təsdiq etməyib.

Qəzzanın Səhiyyə Nazirliyi İsrailin zolağın şimal hissəsinin sakinlərini təxliyə etməyə çağırdığı cənub hissədə 800-dən çox mülki adamın öldürüldüyünü açıqlayıb. Qurum elan edib ki, oktyabrın 7-dən bəri Qəzzada həlak olan fələstinlilərin sayı azı 4 min 651 nəfər olub. İsrail rəsmilərinin yaydığı son xəbərə görə isə, HƏMAS-ın 7 oktyabr hücumundan sonra bu ölkədə ölənlərin sayı 1400-ü ötüb. Müxtəlif mənbələrin məlumatına görə, hazırda iki yüzə yaxın İsrail vətəndaşı terrorçuların əlində girov kimi qalmaqdadır.

HƏMAS–İsrail münaqişəsi nə qədər davam edə bilər? Bu sual indi çoxlarını düşündürür. Dünən İsrailin müdafiə naziri Yoav Qallant jurnalistlərə bildirib ki, HƏMAS-a qarşı hərbi kampaniya "bir, iki, üç ay" davam edə bilər və bu müddət silahlı qruplaşmanın tamamilə məhv edilməsi ilə başa çatmalıdır.

"Bu, Qəzzada son əməliyyatımız olmalıdır, çünki daha sonra HƏMAS olmayacaq" -Yoav Qallant deyib. Nazir növbəti mərhələnin, çox gözlənilən quru əməliyyatının tezliklə baş tutacağını bildirib. Ancaq bunun nə zaman olacağı bəlli deyil.

Dünən İsrail aviasiyası İordan çayının Qərb sahilində yerləşən Jenin bölgəsindəki HƏMAS-a məxsus olduğu iddia edilən bir çox obyektlərə zərbələr endirib. Mənbə bildirir ki, ölən və yaralananlar, eləcə də dağıntılar var. Bundan əvvəl isə İsrail aviasiyası Suriyanın paytaxtı Dəməşqi və Hələb şəhərini ağır bombardmana məruz qoyub. Təl-Əviv bildirib ki, bundan əvvəl məhz həmin hədəflərdən İsrail ərazisinə raketlər atılıb. Tərəflər bir-birlərini regionda eskalasiyanı körükləməkdə ittiham edirlər.

Görünən budur ki, Yaxın Şərqdə "cin şüşədən çıxıb" və onu geri qaytarmaq olduqca çətindir. Münaqişəyə İran, Səudiyyə Ərəbistanı, İordaniya və Misirin də qatıla biləcəyi ehtimalı yüksəlir. Bir çox ərəb dövlətlərində də HƏMAS-İsrail münaqişəsi ilə bağlı ictimai-siyasi gərginlik artır. Narahatlıq doğuran fakt həm də odur ki, HƏMAS-İsrail münaqişəsinə cəlb olunan tərəflərin heç biri güzəştə getmək və iddialarından geri çəkilmək istəmir. Əksinə, qarşılı uttihamlar və döyüşkən ritorika güclənir.

Dünən İsrail Müdafiə Ordusunun mətbuat katibi Conatan Konrikus deyib ki, HƏMAS yaraqlıları bütün girovları azad etməsə və silahlarını yerə qoymasa, İsrail Silahlı Qüvvələrinin Qəzza zolağında yerüstü əməliyyatı demək olar ki, qaçılmaz olacaq. Onun sözlərinə görə, məqsəd HƏMAS-ı hərbi potensialından tamamilə məhrum etməkdir. Odur ki, İsrail ordusu Qəzzada yerüstü əməliyyatı keçirməli olacaq.

Lakin bu, heç də asan hərbi əməliyyat olmayacaq. Birincisi ona görə ki, İran, Livan, Suriya rəsmiləri İsrailin Qəzzada yerüstü əməliyyata başlamasını "qırmızı xətt"i adlamaq kimi qəbul edəcəklərini bildiriblər. İkincisi, HƏMAS-ın qarşı tərəfin yerüstü hərbi əməliyyatlarına qarşı əvvəlcədən ciddi hazırlaşdığı bu gün heç kim üçün sirr deyildir.

Bir çox təhlilçilər isə bu qənaətdədirlər ki, İsrail tanklarının Qəzzaya daxil olması ilə ağır küçə döyüşləri başlana və hər iki tərəfin çoxlu canlı itkilər verməsinə gətirib çıxara bilər. Terrorçuların hazırda əsas niyyətlərindən biri elə budur. Əlbəttə, bunu Təl-Əvivdə də yaxşı başa düşürlər.

Bu arada ABŞ, Böyük Britaniya, Almaniya, İtaliya, Kanada və Fransanın dövlət və hökumət başçıları İsrailə siyasi və hərbi dəstəklə bağlı birgə bəyanat qəbul ediblər. Sənəddə adları çəkilən bu aparıcı Qərb dövlətləri İsraili dəstəkləməklə yanaşı, onun özünü terrordan qorumaq haqqının olduğunu da vurğulayıblar.

Bununla bərabər, Qərb liderləri özlərinin "humanist simaları"nı qorumaq üçün beynəlxalq humanitar qanunvericiliyə əməl etməyə, habelə dinc sakinlərin təhlükəsizliyini təmin etməyə çağırıblar. Bəyanatda iki girovun (HƏMAS-ın azad etdiyi ABŞ-nin iki vətəndaşı nəzərdə tutulur-red.) alqışlansa da, başqa girovların da təcili sərbəst buraxılması istənilib.

Sözügedən dövlət və hökumətlərin başçıları Qəzza zolağına ilk humanitar yardım karvanının daxil olmasını da alqışlayıblar. Yeri gəlmişkən, dünən Misirin "Rəfah" məntəqəsindən Qəzzaya yeni yardım karvanı yola düşüb. Lakin bu yardımların "ümmanda bir damla" olduğu göz önündədir.

Dünən Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis İsrailə səfər edib. O, Baş nazir Binyamin Netanyahu ilə görüşərək ölkəsinin terrorun hər cür təzahürünü qınadığını vurğulayıb. Bu gün Danimarka və Fransa prezidentləri Mark Rutte və Emmanuel Makronun bölgəyə səfəri planlaşdırılıb.

Yeri gəlmişkən, Fransanın bir çox məktəblərində şagird və tələbələr arsında "yəhudi-müsəlman" psixoloji gərginliyin yaşandığı bildirilir. Yaxın Şərqin bir çox müsəlman ölkələrində ABŞ və İsrail səfirlikləri qarşısında etiraz aksiyalarının sayı artır. Dünyanın iri neft birjalarında isə qiymətlər yüksəlir, enerji daşıyıcılarından asılı ölkələrdə istehlak malları bahalaşır.

Qərb dövlətlərindən fərqli olaraq, qardaş Türkiyə iqtidarı problemin ədalətli həllinin yalnız "iki xalq-iki dövlət" prisipinin bərqərar olunması ilə mümkün olacağını israr edir. Ankara ilk gündən vasitəçilik etməyə hazır olduğunu bildirib. Təəssüf ki, bunu istəməyən qlobal güclər mövcuddur.

Bəli, bu gün Yaxın Şərq planetimizin ən həssas nöqtəsidir. 1948-ci ildən yarası qaysaq bağlamayan bu münaqişə bu vaxtadək hər iki tərəfdən on minlərlə günahsız insanın həyatına son qoyub. Bu gün isə dünya, əfsus ki, bölgədə daha qanlı faciələrin şahidi olur.

***Məsaim ABDULLAYEV***
***XQ***

# AZƏRTAC OANA-nın konfransında təmsil olunub




**Oktyabrın 23-də İstanbulda Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının "Xəbər agentliklərinin dezinformasiya ilə mübarizə sahəsində əməkdaşlığı" mövzusunda konfransı keçirilib.**

Tədbirdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev "Dezinformasiya ilə mübarizədə xəbər agentlikləri üçün əməkdaşlıq sahələri" mövzusunda panel iclasında çıxış edib. O bildirib ki, dezinformasiya, feyk xəbər silahdır və onu yaradanların məqsədi də bu silahı cəmiyyətə qarşı çevirməkdir. Bunun kökündə isə şəxsi maraqlar dayanır. Dezinformasiyaya və feyk xəbərə müasir dövrümüzdə artan diqqətin sosial medianın və mesencerlərin bumu ilə bağlı olduğunu vurğulayan sədr diqqətə çatdırıb ki, Azərbaycan dezinformasiyaya ən çox məruz qalan ölkələrdən biridir.

Vüqar Əliyev təklif edib ki, OANA-nın veb-saytında feyk xəbərlərlə bağlı rubrika açılsın və hər bir agentlik üzə çıxardığı yalan informasiyanı orada yerləşdirsin. İdarə Heyətinin onu da sədri vurğulayıb ki, əməkdaşlıq və təcrübə mübadiləsi hər birimizin maraqlarına xidmət edir. Ona görə də OANA çərçivəsində təcrübə mübadiləsi proqramlarına da yer ayırmaq lazımdır. Vüqar Əliyev bu kontekstdə AZƏRTAC-ın Anadolu və TASS agentlikləri ilə informasiya və kadr mübadiləsi istiqamətindəki əməkdaşlığını nümunə gətirib.

# Ermənilərin mina müharibəsi insanlığa qəsddir

**Bakı Dövlət Universiteti (BDU) hüquq fakültəsinin müəllim və tələbələri Strasburq şəhərində "Yaxşı İdarəetmə üçün Avropa İttifaqı və Avropa Şurası Tərəfdaşlığı: Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" layihəsi çərçivəsində təlimlərdə iştirak ediblər.**



Ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov təlimlərin açılış mərasimində Azərbaycanın bu qurum ilə əməkdaşlıq istiqamətləri haqqında məlumat verib, iştirakçılara uğurlar arzulayıb.

İlk dəfə bu formatda keçirilən təlimdə BDU təmsilçilərinə hüquq fakültəsinin dekanı Zaur Əliyev rəhbərlik edib. AŞPA sessiyasında da iştirak edən təlim iştirakçıları Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarlığının Azərbaycan üzrə insan hüquqları məsləhətçisinin mühazirəsini dinlənildikdən sonra qarşılıqlı fikir mübadiləsi aparıblar. Müzakirə zamanı Zaur Əliyev Ermənistanın 30 illik işğal siyasəti nəticəsində azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquq və azadlıqlarından danışıb.

***XQ***

Xalq TV-nin qonaqları

# Azərbaycan elmini dünyada yüksəldən biokimyaçı

## Onun rəhbərliyi ilə Türkiyədə COVID-19-a qarşı təsirli peyvənd hazırlanıb

**(əvvəli XQ-nin 22 oktyabr 2023-cü il tarixli sayında)**



**Xalq TV-nin daha bir qonağı Türkiyənin Ağdəniz Universitetinin professoru, AMEA-nın müxbir üzvü Tərlan Məmmədovdur.**

***– Tərlan müəllim, çalışdığınız ölkələrdə elmin inkişafı üçün yaradılan şərait haqqında nə deyərdiniz? Bu məsələnin ölkəmiz üçün maraq doğuran tərəfləri nədir?***

– Bilirsiz, xaricdə bu məsələlər ənənəviləşib. Çalışdığım Yaponiyada, Amerikada, eləcə də Türkiyədə də belədir. Məsələn, Türkiyədə Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası - TÜBİTAK (Türkiye Bilimsel ve Teknolojik Araştırma Kurumu) sistemi elmi inkişafı ən mükəmməl bir səviyyədə dəstəkləyən təşkilatdır. Mən Türkiyədə işlədiyim dövrdə onun qlobal fəaliyyətini gördüm.

TÜBİTAK-a istənilən alim güvəndiyi layihəni təqdim edə bilir və qrant layihəsindən faydalana bilir. Elmi əməkdaş tərəfindən hazırlanan layihə bu təşkilat tərəfindən dəstəklənirsə, onun yerinə yetirilməsi üçün lazımi dəstək verilir, avadanlıq və cihazlar alınır, layihənin icrası üçün şərait yaradılır, layihəyə tələbə və magistrlərin cəlb edilməsi imkanları yaradılır, onların sonrakı elmi fəaliyyətinə şərait yaradılır və ayrılmış maliyə buna imkan verir. TÜBİTAK-dan qazandığım bir neçə layihə əsasında, Türkiyədə çalışdığım 10 ildən də az bir müddətdə 35-dən çox elmi kadr - doktor və magistr hazırlaya bildim.

Laboratoriyamda işləyən hər bir tələbə layihələrdən təqaüd alir. Yəni layihə iştirakçısı olan hər bir tələbə təqaüdlə təmin olunur, bu türkcə burs adlanır. Təvazökarlıqdan uzaq olmasın, mənə belə bir məlumat verdilər ki, mən bir zaman Türkiyədə ən çox burslu (təqaüdlü) tələbəsi olan professor olmusdum. Şəxsi təcrübəmdən gələn bir qənaətim var ki, gənclərin elmə marağını artırmaq üçün onlara maliyyə dəstəyinin verilməsi çox vacibdir. Mənim lobaratoriyamda çalışan 35-dən çox tələbənin hər biri təqaüd alıb, onlar bir gün belə məvacibsiz işləməyiblər. Digər tərəfdən onlar bu layihələrdə 2-3 illik fəaliyyətdən sonra yetkin bir elm adamı kimi formalaşıblar.

***– Qardaş Türkiyədə yetərincə azərbaycanlı təhsil alır. Tələbələriniz sırasında soydaşlarımız varmı?***

– Yeri gəlmişkən xatırladım ki, Azərbaycanla əlaqələrim çox sıxdır, 2014-cü ildən AMEA-nın müxbur üzvüyəm, eyni zamanda akademiyanın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda Molekulyar Biomühəndislik Beynəlxalq laboratoriyasının qurucusu və rəhbəriyəm. Həm bu laboratoriyada çalışan elmi işçiləri, həm də Türkiyədə təhsil alan tələbələri davamlı olaraq Ağdəniz Universitetində icra edilən layihələrə dəvət etmişəm, onlar da uğurla bu layihələrdə iştirak ediblər. Birgə layihələrimizdə 10 nəfərə qədər azərbaycanlı tələbə çalışıb, onlardan 2-si fəlsəfə doktoru elmi dərəcəsi, qalanları isə magistr diplomu alıblar. Akademiya ilə əlaqələr, ortaq layihələr bu gün də uğurla davam etdirilməkdədir.

***– Azərbaycanla bağlı fəaliyyətiniz yalnız elmi əlaqələrləmi məhdudlaşır?***

– Hesab edirəm ki, harada olub-olmasından asılı olmayaraq hər bir azərbaycanlı Vətəninə, torpağına canı-qanı ilə bağlıdır və bu gendən gələn bir əlamətdir. Xüsusən son illərdə baş verənlər bizi Azərbaycana çox bağladı. Açığı, 30 il işğalda olan torpaqlarımızın dərdi bizləri çox üzdü, hətta xaricdə bu mövzuda bizə verilən bəzi suallardan çox üzüldük. Şükürlər olsun ki, 44 günlük tarixi zəfərdən və son lokal antiterror əməliyyatından sonra torpaqlarımızın azadlığını və ölkəmizin suverenliyini təmin etdik. Bu Ali Baş Komandan və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və ordumuzun tarixi zəfəri idi. Ulu Tanrıdan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı arzulayıram.

Əslində, hər kəsin ruh yüksəkliyi ilə qazandığı bu tarixi zəfərdən hər bir azərbaycanlıya pay düşdü. Yeri gəlmişkən deyim ki, COVID-19-a qarşı peyvənd layihəsini hazırlayanda da qarşımıza bir məqsədi qoymuşduq: hazırladığımız vaksinin adını "Qarabağ" qoyaq. Az bir vaxtda – 9 ayda uğurla sınaqdan keçirdiyimiz layihənin maliyyə dəstəyinin olmaması ucbatından kütləvi istehsalına nail ola bilmədik. Amma yenə də ümidliyik ki, biz buna nail olacağıq və "Qarabağ" adlı vaksini dünyaya tanıdacağıq.

Digər bir məsələ isə budur ki, elmi güclü olan ölkə özü də güclüdür. Sənayenin, kənd təsərrüfatının, səhiyyə və təhsilin, müasir ordu quruculuğunun uğurlu inkişafı xeyli dərəcədə yeni texnologiyalarla, başqa sözlə desək elmin inkişafı ilə bağlıdır. Çalışdığım və dünyaya örnək olan Amerika və Yaponiya kimi ölkələrdə bunu görmüşəm. Ona görə də bu qənaətdəyəm ki, ölkənin güclü olmasının əsas atributlarından biri də elmin inkişaf və gücü ilə bağlıdır. Bu, eyni zamanda, alimlərin üzərinə də ciddi məsuliyyət qoyur.

Biz alimlər də bilik və bacarığımızı xalqımızın inkişafı yolunda səfərbər etməli, elmi inkişafı üçün var qüvvəmizlə çalışmalı, gənclərimizin elmə cəlb olunması və onların elmi potensialının artırılması üçün bütün imkanlarımızı səfərbər etməliyik.

***– Xaricdəki hər bir azərbaycanlının uğuruna sevindiyimiz kimi, sizin elmi nailiyyətləriniz də da bizi qürurlandırır. Xüsusən də pandemiya dövründə həmyerlimizin vaksin tədqiqatının nəticəsini həyəcanla izlədik...***

– Çox sağ olun, əslində, əlimizdə dünya elminin qəbul etdiyi maraqlı və dəyərli tədqiqatlarımız var. Biz COVID-19 vaksinini hazırlamağa pandemiya dövründə – 2020-ci ildə başladıq, uğurlu alındı. Amma bundan əvvəl də başqa uğurlarımız diqqət mərkəzində olub. Məsələn, qarayaraya va malyariyaya qarşı peyvəndə patent aldıq. Bu həm bəşəriyyət və insanlıq üçün önəmli idi, həm də strateji əhəmiyyəti olan məsələdir.

Biz təhlükəsizlik, qiymət və effektivlik baxımından ən qabaqcıl, zülal əsaslı, qarayara peyvəndini yaratdıq və heyvanlar üzərində effektivlik testlərini tamamladıq. Bu vaksin milli və qlobal təhlükəsizlik üçün çox vacibdir. Qarayara kəskin yoluxucu xəstəlikdir və ona qarşı bu cür peyvəndin hazırlanması bioterrorizmlə mübarizə üçün çox vacibdir.

Yaxud, malyariyaya qarşı hazırladığımız vaksin indiyə qədərki ən mükəmməl elmi tədqiqatın nəticəsidir. Qeyd edim ki, malyariya bu gün dünyada ən çox insan ölümünə səbəb olan xəstəliklərdən biridir. Afrikada milyonlarla insanın ölümünə səbəb olan malyariyanın qarşısını almaq uğurlu nailiyyətdir. Bu gün malyariyadan dünyada ildə 500 min adam ölür. Ümumdünya Səhiyyə Təşkilatının 2018-ci ildəki hesabatına görə, 238 milyon insan bu xəstəliyə tutulub və ən qorxulusu, dünya əhalisinin yarısı malyariyaya riski altındadır. İndiyə qədərsə bu xəstəliyə qarşı vaksin hazırlanmayıb.

***– Bu qədər fəlakətli hadisənin qarşısını almağa elmin gücü çatmırmı?***

– Səbəblərdən biri bu xəstəliyi yaradan parazitin (Plasmodium falciparum) əsas antigeninin olduqca mürəkkəb bir quruluşa malik olmasıdır. Ona görə də 20 ildən cox bir müddətdə dünyanın müxtəlif universitetlərində, hətta Harvard kimi çox ünlü universitetdə və mərkəzlərdə aparılan tədqiqatlar müvəffəqiyyətsiz olmusdur.

Yeni texnologiyadan istifadə edərək biz ilk dəfə olaraq malyariya vaksinini yaratdıq. Yaşıl bitki yarpaqlarından uğurla sintez edilmiş malyariya vaksininin effektivlik testi ABŞ-ın Səhiyyə Milli İnstitutunda (NIH) uğurla sınaqdan keçirildi, patentini aldıq və malyariya vaksininin hazırlanması ilə bağlı aparılan tədqiqatların nəticələri 2019-cu ildə Böyük Britaniyanın "Nature" elmi jurnalları ailəsindən olan nüfuzlu "Scientific Reports" jurnalında dərc edildi.

Malyariya vaksini ucun əsas faktor olan Pfs48/45 zülalının klinik sınaqlarından sonra kütləvi istehsalı nəzərdə tutulur. Bu sahədə işlərin uğuru da maliyyə və investorların fəaliyyəti ilə bağlıdır. Düşünürəm ki, ölkəmizin bu sahədə yetərli potensialı var. Tədqiqatlarımızın aparılmasına verilən dəstək Azərbaycan elminin inkişafına da böyük bəhrə verər.

***– Uğurlar arzu edirik, kəşflərinizi Nobel mükafatı sırasında görmək çox xoş olardı.***

– "COVID-19-a qarşı effektiv mRNT vaksinlərinin işlənib hazırlanmasına imkan verən nukleozid bazası modifikasiyası ilə bağlı kəşflərinə görə" 2023-cü ildə fiziologiya və tibb üzrə Nobel Mükafatı Katalin Kariko və Drev Veissman aldı. Fürsətdən istifadə edib bu alimləri təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram.

Qeyd etdiyim kimi, bu yaxınlarda biz prestijli "Frontiers" elmi jurnalında dərc etdirdiyimiz məqalə ilə COVID-19-un ortaya çıxan bütün variantlarına təsirli olan vaksin haqqında dünyada ilk və tək hesabat-məqalə dərc etdik. Başqa sözlə, hazırladığımız COVID-19 vaksini dünyada yeganə vaksin oldu ki, bu vaksin orijinal Vuhan variantının amin tursu ardıcıllığı əsasında hazırlandı, amma "Omicron" da daxil olmaqla, bütün yeni ortaya çıxan variantlar üçün effektiv oldu!

Düşünürəm ki, bizim bu nailiyyətimiz, yəni "COVID-19-a qarsı universal vaksin" hazırlanmasına görə mükafata, hətta Nobel Mükafatına təqdim oluna bilər.

***Tahir AYDINOĞLU,***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Heydər Əliyev dühasının nəğmələşən salnaməsi

**“Azərbaycançılığın musiqili təqdimatı” toplusu işıq üzü görüb. Bir çox məşhur mahnının müəllifi olan bəstəkar, şair, ifaçı Bəhram Nəsibovun irsini yaşadan İctimai Birliyin QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə buraxdığı bu jurnal Ulu öndər Heydər Əliyevin 100 illiyinə layiqli töhfədir.**




Nəşrdə Bəhram Nəsibovun müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin hakimiyyətə qayıdışını, nadir şəxsiyyətini və ölməz əməllərini tərənnüm edən şeir, mahnı və marşlar, not yazıları toplanıb.

Musiqi toplusunu vərəqlədikcə Bəhram Nəsibovun bəzi mahnılarını hələ Ulu öndərin sovet dönəmindəki quruculuq işlərindən ilhamlanaraq yazdığı məlum olur. Zamanında ümummilli lider də bəstəkarın “Deyin, hardadır?”, “Naçar gedər” və başqa mahnılarını çox bəyənmişdi. Ulu öndərin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışını ilk alqışlayan sənət adamlarından olan Bəhram Nəsibov Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poemasına oxşar şəkildə təbrik şeiri yazaraq mətbuatda çap etdirmişdi:

*Heydər baba, sən bu xalqın babası,*
*Səndən deyir hər bölgəsi, obası.*
*Gey əyninə bir peyğəmbər əbası,*
*Qurtar bizi dərdi-qəmlər əlindən,*
*Alqış sənə Azərbaycan elindən!*

Bəhram Nəsibov daha sonra xalqın duyğu və düşüncələrinin ifadəsi olaraq yazdığı “Min yaşa, Heydər baba” mahnısını tamamlayaraq Zeynəb Xanlarovaya təqdim etməli idi. Amma ağır xəstələndiyi üçün həmin əsər müəyyən müddətdən sonra ifa olunub:

*Gəlişinlə cana gəldi bu ellər,*
*Hünərinə alqış dedi könüllər.*
*Bundan belə daha olmaz qan-qada,*
*Səadətlə ömr eləyər nəsillər.*
*El-obadan güc alıb min yaşa,*
*Heydər baba!*
*Xalqa xilaskar olub, sən yaşa,*
*Heydər baba!..*

Daha sonra qeyd olunur ki, Bəhram Nəsibovun akademik Zərifə Əliyevanın timsalında bütün analara həsr etdiyi “Mənim anam” mahnısı da ulu öndəri çox təsirləndirmişdir. Həmin mahnının ilk ifaçısı – Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının solisti Səttar Nəsirov bu barədə xatirələrində bəhs edib.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə iclas zalına gətirilən və həmin sessiyanın qərarı ilə rəsmiləşdirilən üçrəngli Azərbaycan bayrağının ilk musiqili vəsfi də Bəhram Nəsibova aiddir. Topluda “Azərbaycan bayrağı” adlanan həmin marşla bərabər, sözləri Səttar Zərdablıya və Nazim Tapdıqoğluya aid olan “Heydər bayrağının altından keçək”, eləcə də dahi siyasətçinin Türk dünyası ilə əlaqələrin təməlini qoymasını tərənnüm edən “Azərbaycan və Türkiyə” mahnıları not yazıları ilə birlikdə çap olunub.

“Azərbaycançılığın musiqili təqdimatı”nda, həmçinin Bəhram Nəsibovun Ulu öndərə məhəbbətlə yazdığı və 15 İyun Milli Qurtuluş Günü, Yeni Azərbaycan Partiyasının yaranması da daxil olmaqla əlamətdar tarixlərə həsr etdiyi “Tələb eylə”, “Yeniləşən Azərbaycan” kimi mahnı və marşlar da maraq doğurur.

Azərbaycan Bəstəkarlar İttifaqı mahnı şöbəsinin rəhbəri, bəstəkar Gövhər Həsənzadə “Azərbaycançılığın musiqili təqdimatı” nəşri üçün qələmə aldığı məqalədə Bəhram Nəsibovun əsərlərinin sırf vətənpərvərlik ruhunda olduğunu vurğulayıb: “Bu mahnılarda böyük lider Heydər Əliyevin siyasi fəaliyyəti Azərbaycan xalqının rəmzinə, onun həyat yolu isə Vətənə sədaqət və məhəbbətin nümunəsinə çevrilərək bəstəkarın yaradıcı dili ilə vəsf olunur... Bütün dünya azərbaycanlıların milli iftixarı – Ulu öndər Heydər Əliyev yaddaşlarda xilaskar və qurucu dövlət xadimi kimi əbədi yaşayacaq. Sözləri və musiqisi Bəhram Nəsibova məxsus olan “Azərbaycan gəncliyi” mahnısı da məhz bu fikirləri parlaq şəkildə özündə əks etdirir”.

Xatırladaq ki, dəyərli nəşrin buraxılmasını təşkil edən “Elm, təhsil, mədəniyyət və azərbaycançılıq ideyasının təbliği məsələləri” layihəsinin rəhbəri bəstəkarın oğlu Adil Nəsibovdur.

***Ə.DOSTƏLİ***
***XQ***

**Bakı Media Mərkəzi böyük mesenat və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyatından bəhs edən “Himayədar” filmi üzərində yaradıcılığı davam etdirir. Milli dəyərlərimizin təbliğinə töhfə verəcək bu böyük layihənin rəhbəri və prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır.**

# “Himayədar” – Hacı Zeynalabdin Tağıyevin ekran obrazı




Ekran əsərində XIX əsrin sonu XX əsrin əvvəlində Bakı və bölgədə baş verən mühüm tarixi hadisələr öz əksini tapır. Xatırladaq ki, filmin çəkilişinə bu ilin may ayında başlayıb və 120 çəkiliş gününün artıq 90-ı yekunlaşıb. Serial şəklində lentə alınanəsər 8 hissədən ibarət olacaq. Layihənin kütləvi səhnələri üçün 1600 nəfər cəlb edilib. Bundan başqa, 70-dən çox məkanda çəkiliş aparılıb və 300-dən çox abidə seçilib.

Çoxseriyalı filmin gələn il izləyicilərin ixtiyarına verilməsi nəzərdə tutulur. Belə ki, 2024-cü il böyük xeyriyyəçinin vəfatının 100 illiyi tamam olacaq. Ekran işinin tamaşaçılar və kinosevərlər tərəfindən



böyük maraqla qarşılanacağı gözlənilir.

***Z.HƏSƏNOVA***
***XQ***

# Zəfər festivalı xalqımıza Qələbə təntənəsi yaşadır

**Ölkədə 8 Noyabr Zəfər Günü münasibəti ilə tədbirlərə start verilib. Oktyabrın 22-dən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Zəfər” musiqi və teatr festivalı başlayıb. Silsilə tədbirlərl paytaxtla yanaşı, Gəncə və Sumqayıt şəhərlərini, İsmayıllı, Biləsuvar, Sabirabad, Xaçmaz rayonlarının bir sıra mədəniyyət ocaqlarını da əhatə edəcək, tarixi qələbəmizə həsr olunmuş şənliklərlə davam edəcək.**

İlk 2 gündə Bakının teatr və konsert zallarında Zəfərə həsr edilmiş konsert proqramları təqdim edilib, teatr tamaşaları oynanılıb. Tədbirlər çərçivəsində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İlqar Fəhminin “Balaca kişilər” tamaşasının nümayişi olub. Pyesin müəllifi “Balaca kişilər” tamaşasının məhz Zəfər Musiqi və Teatr festivalı çərçivəsində oynanılmasının çox əlamətdar hadisə olduğunu bildirib: “Tamaşada bəhs olunan o balaca kişilər məhz Vətənin bu günü üçün canlarından keçdilər. Onlar şəhid oldular ki, Azərbaycan bundan sonra yalnız zəfər gününü qeyd etsin. Festival yaxşı təşkil ounub, elə bilirəm növbəti il daha da gözəl keçiriləcək, çünki ümid edirəm ki, gələn ilə zəfərə həsr edilmiş sənət nümunələrinin sayı daha çox olacaq.”

Tamaşanın rejissoru, Əməkdar artist, festival iştirakçısı Nicat Kazımov isə qeyd edib ki, belə festivalların ənənə halını alması vacibdir: “Qoy, gələcək nəsillər də tariximizi, qəhrəmanlarımızı yalnız tarix kitablarından deyil, həm də sənət nümunələrindən tanısınlar, bilsinlər”.

Mədəniyyət Nazirliyinin musiqi sektorunun müdiri Vüqar Hümbətovun dediyinə görə, tədbirlər planı genişdir: “Oktyabrın 25-dən 27-nə qədər Bakının bir çox konsert zallarında bəstəkarların tarixi Zəferimizə həsr etdiyi simfonik əsərlərdən və vokal-xor nömrələrindən ibarət konsertlər olacaq. Oktyabrın 27-də Bakı Kamera və Orqan musiqisi zalı Azərbaycan Dövlət Xor Kapellasının və solistlərin iştirakı ilə konsert gözlənilir. Şəhid və qazi övladları üçün konsert proqramı ilə Dövlət Uşaq Filarmoniyasında təqdim ediləcək. A.Şaiq adına Dövlət Kukla Teatrında Azərbaycan nağılları əsasında hazırlanmış “Yeddi nar çubuğu” uşaq tamaşası məxsusi olaraq şəhid və qazi övladları üçün oynanılacaq”.

İsmayıllı Mədəniyyət evində muğam konserti təqdim olunacaq. Əməkdar artist Aybəniz Haşımova və onun Sənət Akademiyasının uşaqları isə oktyabrın 31-də Biləsuvarda Cəbrayıl məcburi köçkün qəsəbəsində konsert proqramı ilə çıxış edəcəklər. Rəşid Behbudov adına Mahnı Teatrının kollektivinin çıxışı noyabrın 2-də Sabirabadda olacaq. Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri Xaçmaz rayonunda çıxış edəcək. Gəncə Filarmoniyasında Dövlət Rəqs Ansamblının konserti planlaşdırılır. Dövlət Mahnı və Rəqs Ansamblının çıxışı isə Sumqayıt Mədəniyyət evində olacaq.

Festival çərçivəsində Ağdamın Quzanlı qəsəbəsində yerli Dram Teatrının




ifasında Ülviyyə Heydərovanın “İnanıram” tamaşası təqdim ediləcək. Səməd Vurğun adına Rus Dram Teatrının quruluşunda Aleksandr Nikuşinanın “Qələbə” tamaşasının Zəfər festivalı çərçivəsində oynanılması planlaşdırılır. Şuşa Musiqili Dram Teatrı isə noyabrın 2-si və 3-də “Dəmir yumruq” kompozisiyasını Lənkəran Dövlət Dram Teatrının səhnəsində nümayiş etdirəcək. Vətən müharibəsində şanlı Qələbəmizə həsr olunmuş tamaşalar, muğam axşamı və digər mədəni tədbirlərin təşkili noyabrın 8-nə qədər davam edəcək.

Tədbirlərdə ictimaiyyət nümayəndələri, şəhid ailələri və qaziləri, şəhid və qazi övladları iştirak edirlər.

***R.QURBANLI***
***XQ***

**Ankarada “Doqquz ölkə, doqquz şəhər, bir festival” şüarı altında keçirilən 8-ci Türk Dünyası Sənədli Film Festivalına yekun vurulub. Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, TÜRKSOY-da ölkəmizin daimi nümayəndəsi Elçin Qafarlı və digər təşkilatların nümayəndələrinin də iştirak etdikləri yekun mərasimində tanınmış kinorejissor, Xalq artisti Vaqif Mustafayevin “Fikrət Əmirov” adlı filmi “VIII”nın baş mükafatına layiq görüldüyü elan olunub.**

# Vaqif Mustafayevin filmi 9 ölkənin birincisi oldu






Türk Dünyası Jurnalistlər Birliyinin sədri Menderes Dəmir festivalın Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Kino Baş İdarəsi, bir sıra bələdiyyələr, birliklər, QHT-lər, universitetlər, media şirkətləri və digər təşkilatların dəstəyi ilə reallaşdığını bildirib. Ardınca türk dünyasına verdiyi töhfələrə görə Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri, mərhum Qənirə Paşayevanın adına təsis edilən şərəf mükafatı, Azərbaycan Mədəniyyət Nazirliyinin “Azərbaycanfilmin 100 illiyi” kimi bir sıra mükafatlar təqdim edilib. Ortaq tariximizin dünyada tanıdılması baxımından xüsusi əhəmiyyət kəsb edən Türkiyə istehsalı olan seriallara festivalın ikinci mükafatını səfir Rəşad Məmmədov təqdim edib. Qalib filmlərin dünyanın 9 ölkəsində nümayişi nəzərdə tutulur. İlk nümayiş oktyabrın 25-də Bakı Dövlət Universitetində keçiriləcək.

Builki “Türk Dünyası Sənədli Film Festivalı”na ümumilikdə 371 müraciət olub. Onlardan müsabiqənin şərtlərinə uyğun 152 sənədli film seçilərək festivala qəbul edilib. 41 nəfərdən ibarət münsiflər heyətinin rəhbəri türkiyəli rejissor Fərda Gürcandır.

Festival çərçivəsində yaddaqalan tədbirlərdən biri rejissor Tahir Tahiroviçin təşəbbüsü ilə “Azərbaycanfilm” kinostudiyasının yaranmasının 100 illiyi münasibətilə foto-film sərgisinin təşkili olub.

**Azərbaycanın Xalq artisti Vaqif Mustafayev əsas mükafatın nominantı seçildiyinə görə təşəkkürünü ifadə edib. Rejissor mərasimdən sonra jurnalistlərə müsahibəsində dedi:**

– Ötən il Bursa şəhərində keçirilən “Qorqud Ata” Beynəlxalq Film Festivalında mən “Türk dünyasının ən yaxşı rejissoru” nominasiyasında mükafata layiq görülmüşdüm. Oradakı çıxışım zamanı münsiflər heyətinin qərarını ədalətli hesab etdiyimi dedim. İndi də bu fikirdəyəm. Bəzən insanın arzuları yerindəcə çin olur. Burada da belə oldu. Mən arzuladım, onlar da məni bu ada layiq gördülər. Məhz Türk dünyasına aid festivalda ən yüksək mükafata layiq görüldüyüm üçün özümü çox xoşbəxt hesab edirəm. Başqa ölkələrdə də mükafatlar ala bilərik. Lakin Türk dünyasında, öz yurdunda qiymət almaq insana çox doğma gəlir.

**Daha sonra Vaqif Mustafayev “Fikrət Əmirov” filmindən söz açdı:**

– Fikrimcə, yalnız milli mənsubiyyətini dərindən dərk edən bir sənətkar beynəlxalq səviyyəyə ucala bilər. Fikrət Əmirov da milli şəxsiyyət, milli sənətkar idi. Bizim milli musiqimiz də məhz Fikrət Əmirovun sayəsində çox yüksək səviyyəyə ucaldı. O, muğamlarımızı, mahnılarımızı əsas götürərək simfonik musiqiyə çevirmişdi. Bundan əlavə, mən Fikrət Əmirov haqqında bilinməyən həqiqətləri də bu film vasitəsilə insanlara çatdırmaq istədim. Əvvəllər bioqrafik filmləri eyni üslubda, yəni insanın həyatı və yaradıcılığı şəklində çəkirdilər. Lakin bu filmdə mən çalışdım ki, Fikrət Əmirovun həyatını, sənət taleyini, sevgisini, yüksək istedadını, müharibə illərini və digər məqamları insanlara göstərim.

Bu filmə baxanlar bütün bunlardan xəbərsiz olduqlarını deyirlər. Filmin təqdimat mərasimində də insanların çox təsirləndiklərini, hətta ağladıqlarını görmək olardı. Bütün bunları gördükdə mən Fikrət Əmirovu insanlara olduğu kimi tam tanıtmaq üçün çıxdığım bu yolda məqsədimə nail ola bildiyimi, rejissor kimi öz missiyamı yerinə yetirdiyimi anladım. Fikrət Əmirov musiqisi insanların hisslərinə dərindən təsir edir, bu filmin də eyni səviyyədə insanları təəsüratlandırması mənim üçün çox vacib idi.

**Fikrət Əmirovla bağlı xatirələrini bölüşən Xalq artisti dahi bəstəkarımızı ilk dəfə 6 yaşı olanda gördüyünü söylədi:**

– Valideynlərim mənim musiqiçi olmağımı istəyirdilər. O zamanlar Konservatoriyanın nəzdində Musiqi Məktəbi var idi və mən orada ritm üzrə imtahan verirdim. Qarşımda yaxasında medal olan iki nəfər oturmuşdu. Təbii ki, mən o zaman tanımasam da, onlardan biri Fikrət Əmirov, digəri isə Azərbaycanın Əməkdar artisti, nağara ustası Çingiz Mehdiyev idi. Fikrət Əmirov orada mənim istedadlı olduğumu dedi. Çünki bütün ritmləri dəqiqliyi ilə təkrarlayırdım.

Elə o zamandan Fikrət Əmirov yadımda qalmışdı. Mənim üçün Fikrət Əmirovun ailə üzvlərinin film ilə bağlı fikirləri çox vacib idi. Onlar ekran əsərinin əhəmiyyətini xüsusi qeyd etdilər və filmin gələcək nəsillərə ötürülməsi baxımından da vacibliyini bildirdilər. Bu sözləri eşitmək, təbii ki, mənim üçün çox sevindirici idi, lakin işin məsuliyyətini daha da artırırdı.

Türk dünyasının sənədli filmlər üzrə ən yüksək mükafatını almaq isə mənim üçün əməyimin ən gözəl bəhrəsidir.

***XQ***

**Hüseyn Cavid günü**

# “Yerə enməm də səma şairiyəm”

**Görkəmli şair, dramaturq Hüseyn Cavid 1882-ci il oktyabrın 24-də Naxçıvan rayonunun Şahtaxtı kəndində dünyaya gəlib, 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndində həlak olub.**



Haradan haraya? Hüriyyət şairini doğma Şahtaxtı kəndinindən uzaq, yad Şevçenko kəndinə aparıb çıxaran səbəb onun dövrün "tələbləri"ni deyil, ürəyinin tələblərini yerinə yetirməsi, milli dövlətçilik əqidəsinə sadiqliyi olub. O heç zaman Vətən, xalq sevgisi ilə dolu olan ürəyinin əksinə getməyib, ictimai-siyasi problemləri olduğu kimi qələmə alıb. “Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir!” – deyib Hüseyn Cavid.

Şair Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir.

Hüseyn Cavidin yaradıcılığında mühüm yer tutan, ən yaxşı dram əsəri sayılan “İblis” (1918) müharibə əleyhinə yazılmışdır. Müharibələrin günahsız insanların həyatına gətirdiyi faciələr Cavidi hiddətləndirirdi. Şair bütün şər xislətli adamları İblis obrazında ümumiləşdirib, şər qüvvələrə, ədalətsiz müharibələrə lənət oxuyub. "İblis" Hüseyn Cavidin ilk səhnəyə qoyulan əsəridir.

1920–1930-cu illərdə Hüseyn Cavid “Peyğəmbər”, “Topal Teymur” “Səyavuş”, “Xəyyam” adlı tarixi dramlar yazıb.

1938-ci ildə “sovet hakimiyyətinin əleyhinə işlər aparmaq”da ittiham olunaraq həbs edilən, Sibirə surgün olunan şair ölümündən sonra 1956-cı il martın 6-da Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə bəraət almışdır.

Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi şairə layiq şəkildə qeyd olunub. Naxçıvanda ev-muzeyi yaradılıb.

Məzarı qərib, ruhu yad eldə dolaşan şairin nəşi Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə İrkutskdan doğma diyarı Naxçıvana gətirilərək dəfn edilib.1996- cı ildə şairin məzarı üzərində möhtəşəm məqbərə ucaldılıb.

Şairin öz dili ilə desək, "cümlə-xəyanətlərə bais, hər kəsə xain" İblis Cavidi çox uzaqlara sürgün etsə də, cismən öldürsə də, onun ruhunu öldürə bilmədi, çünki mübariz, üsyankar ruhlar daim səmada dolaşır:

***Mən fəqət hüsni-xuda şairiyəm,***
***Yerə enməm də səma şairiyəm.***

***ZÜLFİYYƏ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 232 (30348) 24 oktyabr 2023-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

### Akrobatlarımız 9 medal qazanıblar

***Bolqarıstanın Varna şəhərində keçirilən 31-ci Avropa çempionatında akrobatika gimnastikası üzrə Azərbaycan millisi daha 3 qızıl medal qazanıb.***



Nəzrin Zeyniyeva, Zəhra Rəşidova və Anahita Bashiridən ibarət qadın qrupu (gənclər), eləcə də Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük balans, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyü isə temp hərəkətlərində birinci yeri tutublar. Bununla da, komandamızın qitə çempionatında qazandığı qızıl medalların sayı 7-yə çatıb.

Qeyd edək ki, bundan əvvəl gimnastlarımız 4 qızıl və 2 gümüş mükafata sahib olmuşdular. Beləliklə, yığmamız yarışı 9 medalla başa vurub.

### Taekvondo komandamızın 5 uğuru

***Taekvondoçularımız Dohada keçirilən Qətər açıq çempionatında 1-i gümüş, 4-ü bürünc medal olmaqla 5 mükafat qazanıblar.***



G1 kateqoriyalı yarışda Azərbaycan millisinin üzvlərindən yalnız finalda məğlub olan Cavad Ağayev (74 kq) ikinci yeri tutub. Səyyad Dadaşov (54 kq), Qaşim Maqomedov (58 kq), Həmidreza Badrialiabadi (+87 kq) və Səmərrux Osmanova (53 kq) isə bürünc medala sahib olublar.

### Əlcəzairdə 1 qızıl, 1 bürünc

***Əlcəzairdə keçirilən "Algeria International 2023" beynəlxalq turnirində badmintonçumuz Edi Reski Dviçayo qızıl medala sahib olub.***



Yarışa əsas mərhələdən başlayan idmançı ilk görüşdə yerli badmintonçu Daoud Aimeni, növbəti qarşılaşmada polşalı Dominik Kvintanı, 1/4 finalda Fransa idmançısı Yanis Qaudini, yarımfinalda isə italiyalı Kristofer Vittorianı məğlub edərək finala yüksəlib.

Həlledici mərhələdə Fransanın digər idmançısı Saça Leveque ilə görüşdə ilk seti 15:21 hesabı ilə geridə bitirsə də, digər iki setdə (21:13,21:18) rəqibindən üstün oyun nümayiş etdirərək turnirin qalibi olub. Bununla da o, Paris Olimpiadasına lisenziya xalları verən yarışda aktivinə 2500 reytinq xalı yazdırıb.

Qadın idmançımız Keişa Fatimə Zəhra da yarışda mükafatçılar sırasında yer alıb. İdmançımız ilk görüşlərdə Əlcəzair, Fransa və İtaliyanı təmsil edən badmintonçuları məğlub etsə də, final uğrunda qarşılaşmada fransalı Rosi Oktaviaya uduzaraq bürünc medalla kifayətlənib. Badmintonçu 3-cü yeri tutmaqla yanaşı, hesabına 1750 reytinq xalı da yazdırıb.

### Cüdo komandamız Avropa birincisidir



***Latviyanın paytaxtı Riqada keçirilmiş Avropa kuboku yarışında Azərbaycanın yeniyetmə cüdoçuları uğurla çıxış edərək ümumi hesabda birinci yeri tutublar.***

İki gün davam edən turnirdə 16 cüdoçu ilə mübarizə aparan Azərbaycan komandası 12 medal qazanıb. Belə ki, təmsilçilərimizdən Bahadır Feyzullayev (50 kq), Mirxaliq İskəndərov (60 kq), Ümüd Qurbanov (66 kq), Sübhan Axundov (+90 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Rüstəm Qasımzadə (50 kq), Əli Qazıməmmədov (81 kq), Rəsul Səmədli (+90 kq) gümüş, Nihad Məmişov (55 kq), Səlim Sultanov, Səid Şərifov (hər ikisi 66 kq), Cəsur İbadlı (73 kq) və Mehdi Abbasov bürünc medala yiyələniblər.

***Leyla SABİRQIZI***
***XQ***

## Futbol aləmi

# O "İngiltərə Pelesi" idi

*Ser Bobbi Çarlton 86 yaşında dünyasını dəyişib*

**Yerli media portalları yazır ki, 2020-ci ildə demensiya (yaddaşın, düşüncənin, fəaliyyət qabiliyyətinin pozulması) diaqnozu qoyulmuş dahi futbolçu dünyadan rahat və ağrısız köçüb.**



Azarkeşlərin fəxr və sevgi ilə "İngiltərə futbolunun Pelesi" adlandırdığı, 1966-cı ildə yığma komandanın tərkibində dünya çempionluğunu qazanmış Bobbi Çarlton 17 il "Mançester Yunayted" klubunun formasını geyinib. O, İngiltərə yığmasında keçirdiyi 106 oyunda 49 qol vurub.

"Mançester Yunayted"in stadionunda klubun tarixində ən məşhur futbolçuların – "müqəddəs üçlüy"ün (Bobbi Çarlton, Denis Lou və Corc Best) əksi olan banerin aşağısında bu sözlər yazılıb: "Nümunəvi və vicdanlı davranışına görə ona hamı rəğbət bəsləyirdi. Ser Bobbini həmişə futbol nəhəngi kimi xatlırlayacağıq".

Yeri gəlmişkən, 1958-ci ildə Belqraddan Münhenə uçan, göyərtəsində "Mançester Yunayted" klubunun futbolçularının və rəhbər heyətin olduğu təyyarənin hava limanında qəzaya uğraması nəticəsində 44 sərnişindən 23-ü həlak olmuşdu. 21 yaşlı Bobbi həmin qəzadan yüngül xəsarətlə qurtulmuşdu.

***İ.HƏSƏNQALA***
***XQ***

## Ekologiya

# Xəzər 2 metr enib – niyə?



**AMEA-nın Coğrafiya İnstitutunun direktoru Zakir Eminov son vaxtlar Kür çayında yaranan bir çox problemlərlə bağlı açıqlama verib. O deyib ki, Volqa çayında suyun səviyyəsi 30 faizdən çox azalıb. Kür çayı isə son 2 ildə Xəzər dənizinə şirin su gətirmir.**

İnstitut direktoru, həmçinin bildirib ki, son dövrlərdə Xəzər dənizində şərq və cənubdan əsən isti küləkli günlərin sayı artıb: "Nəticədə Xəzər dənizində suyun səviyyəsi 2 metrə qədər aşağı düşüb. Bu da gəmilərin sahilə yan almasında problemlərə gətirib çıxarıb".

Z.Eminov onu da əlavə əlavə edib ki, son illər Kür-Araz ovalığında bir çox ekoloji problemlər yaranıb. Alimin sözlərinə görə, havanın temperaturu yüksəldikcə, ərazidəki meşələrin sahələri azalır. Suvarma suyuna qənaət etmək üçün isə mütləq səmərəli suvarma şəbəkələri qurulmalıdır.

***N.AYTƏN***
***XQ***

# Gün yağmursuz keçəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən oktyabrın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, axşama doğru şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 13-17°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 21-26°, dağlarda gecə 2-7°, gündüz 10-15° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## Ağrılı zarafatlar

### Araqdan "əziyyət"



Deyirlər, Mirzə Ələkbər Sabir Tiflisdə xəstə yatarkən həkimlər ona qarnına araq sürtməyi tapşırırlar. Bu, onun ağrılarını bir qədər azaltsa da tam kömək etmir. Bir dəfə şəfqət bacısı onun qarnına yenə araq sürtərkən, şair özünəməxsus zarafatyana tərzdə deyir:

– Xalq arağı qarnının içinə töküb keyf çəkir, mən bədbəxt isə üstünə yaxıb əziyyət çəkirəm.

### "Taylı tayını axtarar"...

Bakıda bir fırıldaqçı müctəhid varmış– adı Mirzə Ələkbər. Bir gün onu moizə oxumaq üçün Hacı Qasım bəy məclisinə dəvət edirlər. Müctəhid gəmidən düşüb körpüyə gəlir və onu gözləyən faytona minmir və qəzəblə deyir:

– Fayton şeytan əməlidir. Mənə çullu uzunqulaq gətirin. Mən məscidə uzunqulaqda gedəcəyəm.

Bu əhvalatı Sabirə danışanda gülümsəyib sakitcə deyir:

– Niyə təəccüblənirsiniz? Uzunqulaq uzunqulağı sevər – taylı tayını axtarar.

### "Bu kabab, bu lavaş"...

Mirzə Ələkbər Sabir Tiflisdə "Molla Nəsrəddin" redaksiyasında Məmmədəli Sidqi ilə bir otaqda qalır, bir yerdə yeyib-içirmişlər.

Gecələrin birində Sidqi evə çox gec gəlir. O gələnə qədər Sabir çox yorğun olduğundan yatmaq istəyir. Sabir yatağa girməzdən əvvəl Sidqinin xörəyini hazırlayıb stolun üstünə qoyur və bir vərəqdə iri hərflərlə yazır:

**Bu kabab, bu lavaş,**
**Ye yavaş, yat yavaş.**



### "Qarnım sandıq deyil"...

Tiflisdə Sabir özünü həkimlərə göstərərkən onun qaraciyərindən şübhələnirlər. Amma xəstəliyi dəqiqləşdirmək üçün cərrahiyə əməliyyatı etmək istəyirlər. Bu barədə ona bildirib razılığını almaq istəyəndə Sabir qəti şəkildə etiraz edir və zarafatyana deyir:

– Mənim qarnım sandıq deyil ki, açıb içinə baxasınız, axtardığınızı tapmayıb sonra yenidən örtəsiniz. İstəmirəm.

***Z.HÜSEYNLİ***
***XQ***

## Texnologiya yenilikləri

# Marsda oksigen alınacaq

**Britaniyalı alimlər karbon qazını effektiv şəkildə udan və oksigeni buraxan "Chroococcidiopsis cubana" bakteriyasından ibarət bioboya hazırlayıblar. Tədqiqatçıların fikrincə, bu bioboya həm Yerdə, həm də Marsın sərt mühitində istifadə oluna bilər.**



"Chroococcidiopsis cubana" bakteriyaları Marsdakı şəraitə bənzəyən səhralarda yaşayır. Mikroorqanizmlər həddindən artıq zəif işıq şəraitində belə fotosintez etmək qabiliyyəti sayəsində sağ qalırlar. Mikrobioloqlar mikroorqanizmlərin təhlükəsiz şəkildə mövcud ola biləcəyi lateks və gil nanohissəcikləri əsasında xüsusi örtük yaradıblar. Daha sonra mikrobların 30 gün ərzində karbon dioksidi udub və oksigen buraxmalarını müşahidə ediblər.

Tədqiqatın müəllifi və bakterioloq Susi Hanqli Uilson, "Mexaniki cəhətdən dayanıqlı hazır bio örtüklər və ya "canlı boyalar" adətən su tələb edən bioreaktor əsaslı proseslərdə su istehlakını azaltmaqla bu problemləri həll etməyə kömək edə bilər", – deyib.

***XQ***


## "Gəncə Universam" QSC səhmdarlarının nəzərinə!

24 noyabr 2023-cü il saat 10.00-da "Gəncə Universam" QSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin ləğv edilməsi.

**2.** Ləğvetmə komissiyasının yaradılması.

**3.** Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.

**4.** Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin idarə heyətinin sədrinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 022-266-45-92.

Ünvan- Gəncə şəhəri, H.Əliyev prospekti 149.

***İdarə heyəti***


## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin professoru

**ORUC MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə qardaşı

**VAQİF MƏSİMLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Emin Əfəndiyev və aparat işçiləri "Şəfa-Qusar" İstirahət Mərkəzinin direktoru Zeynəddin Xasmətova əzizi

**NURƏLİ MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Tələt Məcidova əzizi

**ELEONORA MƏCİDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2716
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00